QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 233 (5953) **17 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Hazırda Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir"

*Prezident İlham Əliyev "Azərenerji" ASC-nin prezidentini qəbul edib*



Səh 2

3

"U. S. News & World Report" jurnalının reytinq siyahısı: Azərbaycan dünyanın ən güclü ölkələri sırasındadır



7

Qaregin Njde və onun "Tseqakron" təlimi



3

Almaniyalı deputat: Paşinyanın Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi şərh etməsi cəfəngiyyatdır



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

17 dekabr 2019-cu il

# İlham Əliyev: “Hazırda Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir”

## *Prezident İlham Əliyev “Azərenerji” ASC-nin prezidentini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul edib.***

AZƏRTAC xəbər verir ki, ölkəmizdə elektrik enerjisinin istehsalının, istehsal güclərinin artdığını bildirən Prezident İlham Əliyev bildirib ki, son illərdə bir çox yeni elektrik stansiyaları tikilib və hazırda Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir və eyni zamanda, bizdə ixrac imkanları yaradılıb:

“Bu il biz önəmli addımların atılması nəticəsində yeni istehsal güclərini işə saldıq. İlk növbədə, “Şimal-2” Elektrik Stansiyasının fəaliyyətə başlaması önəmli hadisədir. Sentyabr ayında mənim iştirakımla stansiyanın açılışı olmuşdur. Gücü 400 meqavat olan stansiya bizim enerji potensialımızı böyük dərəcədə artırır. Şərti yanacağın sərfiyatı da çox aşağı səviyyədədir. Ona görə bu stansiya bütün standartlara cavab verir. Artıq bir neçə ay keçibdir, stansiyanın fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?

Baba Rzayev: Cənab Prezident, qeyd etdiyiniz kimi, Sizin birbaşa tapşırığınız əsasında biz bu stansiyanı işə salmaq üçün böyük bir qrup yaratdıq. Biz analizlər apardıq və bu il sentyabrın 5-də Sizin iştirakınızla 400 meqavatlıq bu istilik elektrik stansiyasını işə saldıq. Qeyd etdiyiniz kimi, bu, Cənubi Qafqazda yük rejimindən asılı olaraq 214-216 qram xüsusi şərti yanacaq işlədən yeganə yarımstansiyadır. Yəni, çox qənaətcildir və onun faydalı iş əmsalı 57,4 faizdir. İl ərzində 3,2 milyard kilovat-saat enerji istehsal edir.

Prezident İlham Əliyev: Hazırda stansiya hansı səviyyədə işləyir, tam gücü nə qədərdir?

Baba Rzayev: Tam gücü ilə işləyir. Biz rejimdən asılı olaraq 380 meqavat yükləyirik, hazırda 380 meqavatla işləyir.

Prezident İlham Əliyev: Çox yaxşı. Bu, bizim enerji potensialımızı böyük dərəcədə gücləndirir və artan tələbatı da təmin edəcəkdir. Eyni zamanda, ilin əvvəlində sizə göstəriş vermişdim ki, “Azərbaycan” İstilik Elektrik Stansiyasının təmir-bərpa işləri təmin edilsin, 8 blokdan 5-də yenidənqurma işləri aparılmalı və tamamlanmalı idi. Bu sahədə vəziyyət necədir?

Baba Rzayev: Cənab Prezident, beş blokda yenidənqurma işləri artıq başa çatıb. Bundan başqa, məruzə etdiyim kimi, 500 kilovoltluq açıq paylayıcı qurğu tamamilə yenidən qurulub, 330 kilovoltluq paylayıcı qurğuda isə işlərin 80 faizdən çoxu icra olunub. Bu, qəzaların qarşısını tamamilə almağa kömək edəcək.

Cənab Prezident, mən Sizə məruzə etmək istəyirəm ki, Ulu



Öndər bu stansiyanın təməlini qoydu. Çox çətinliklə də olsa, sovetlər birliyindən bu layihəni alıb Azərbaycanda yerləşdirməyə nail oldu. Siz də bu stansiyaya ikinci həyat verdiniz. Bu, Mingəçevir camaatında həqiqətən çox böyük ruh yüksəkliyi yaradıb. “Azərbaycan” İstilik Elektrik Stansiyasında və Mingəçevir Su Elektrik Stansiyasında 1600 nəfərdən çox adam işləyir. Onlar ümidlərini itirmişdilər ki, yəqin, bunun dövrü artıq bitib, bundan sonra 3 il, 5 il iş yeri olmayacaq. Bugünkü vəziyyəti görürlər və bilirlər ki, həqiqətən orada hələ 20-30 il də işləmək mümkün olacaq.

Prezident İlham Əliyev: Elədir. Amma əfsuslar olsun ki, əvvəlki dövrlərdə stansiya öz potensialını böyük dərəcədə itirmişdi. Ona görə mən “Azərenerji”nin yeni rəhbərliyi qarşısında vəzifə qoymuşdum ki, itirilmiş güclər bərpa edilsin. O vaxt belə hesablanmışdı ki, ən azı 300 meqavat elektrik enerjisi potensialı bərpa edilməlidir. Bu istiqamətdə hansı addımlar atılıb və gələn il hansı işlər gözlənilir?

Baba Rzayev: Cənab Prezident, artıq 200 meqavatı bərpa olunub və biz 300 meqavat yox, 400 meqavat gözləyirik, bir az da ondan çox. Biz 400 meqavatı yay rejimində gözləyirik. Qış rejimində isə təqribən 500-550 meqavat artırılmasını gözləyirik.

Prezident İlham Əliyev: Yəni, qalan 3 blok da təmir olunacaq?

Baba Rzayev: Bəli, tamamilə. Əsas məsələ odur ki, biz onun həm soyutma sistemini, həm də bütün kimyəvi reagentlər olan sahəsini tamamilə yenidən qurmuşuq. Orada blokların özünü, generator, turbin və qazanları tamamilə yenidən qururuq. Amma köməkçi qurğu və binaların hamısını demək olar ki, sıfırdan tikməyə başlamışıq.

Prezident İlham Əliyev: Çox vacibdir, bu, bizim strateji obyektimizdir. Keçən ilin yayında baş vermiş qəza əlbəttə ki, bizə çox baha başa gəldi. Bundan həm bizim vətəndaşlar əziyyət çəkdilər, metroda qalanlar oldu, həm də sənaye müəssisələri ziyan çəkdi. Ona görə qəzanın səbəblərinin araşdırılması üçün komissiya yaradıldı və səhlənkarlığa, pozuntulara yol verən bütün vəzifəli şəxslər işdən kənarlaşdırıldı. Ona görə məhz bizim strateji obyektimiz olan Mingəçevir Elektrik Stansiyasının bərpası və qəzadan özümüzü sığortalamaq məsələləri “Azərenerji”nin yeni rəhbərliyi qarşısında əsas vəzifə kimi dayanmışdır. Eyni zamanda, 400 meqavat gücündə olan “Şimal-2” stansiyasının məhz Bakıda inşa edilməsi bizim enerji generasiya güclərimizin ölkə ərazisində daha bərabər şəkildə paylanmasına xidmət göstərir.

Qəzadan sonra mən göstəriş vermişdim ki, bununla paralel olaraq, bizim bütün metro stansiyalarında generatorlar quraşdırılsın. Generatorların əsas işi ondan ibarətdir ki, əgər qəza baş verərsə, qatarlar perrona qədər hərəkət edə bilsinlər və eskalatorlar da işləsinlər. Generatorların quraşdırılması nə yerdədir? Bu iş başa çatıb, yoxsa yox?

Baba Rzayev: Cənab Prezident, məruzə edim ki, bu iş artıq 100 faiz başa çatıb. Artıq mərkəzi idarəetmə pultu Bakı Metropoliteninin baş ofisindədir və orada təhvil-təslim işləri başa çatıb. Bizim 10 yarımstansiyada gücü 2500, 2000 və 1000 kilovolt olan 17 generator quraşdırılıb və 39 meqavat yeni güc mənbəyi yaradılıb və ehtiyata verilib. İşlər çox yüksək səviyyədə tam başa çatıb.

Prezident İlham Əliyev: Çox yaxşı. Bir məsələ də daim diqqət mərkəzində olmalıdır. Bu da bərpaolunan enerji növlərinin yaradılmasıdır. Şadam ki, bu sahəyə xarici investorlar da böyük maraq göstərirlər. Hazırda Azərbaycan Energetika Nazirliyi bu işlərlə məşğul olur, tender elan olunubdur və bu sahədə böyük təcrübəsi olan şirkətlər tenderdə iştirak edirlər. Yəni, sevindirici hal ondan ibarətdir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparırlar. Vaxtilə biz investorları inandırmağa çalışırdıq ki, gəlib vəsait qoysunlar. Ancaq indi investorlar özləri maraq göstərirlər. Biz tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik. Bu, çox sevindirici haldır. Çünki söhbət təqribən 400-500 meqavat gücündə bərpaolunan elektrik stansiyalarının inşasından gedir. Eyni zamanda, keçən il biz Azərbaycanda dövlət xətti ilə yaradılmış külək elektrik stansiyasının açılışını mənim iştirakımla qeyd etdik. Stansiyanın gücü 50 meqavatdır və bu stansiya indi necə işləyir? Əlavə stansiyanın tikintisi nəzərdə tutulur, yoxsa yox?

Baba Rzayev: Cənab Prezident, qeyd etdiyiniz kimi, 50 meqavat gücündə Yaşma Külək Elektrik Stansiyası tam gücü ilə işləyir. Biz 2018-ci ildə 60 milyon kilovat-saat, 2019-cu ildə isə 80 milyon kilovat-saat enerji istehsalına nail olmuşuq. Artıq bu günə olan məlumatlar bizdə var. Bu da təxminən 13-14 milyon kubmetr qazın qənaəti deməkdir, buna böyük ehtiyac var. Sizin tapşırığınızla Bakı-Quba magistralının sağ tərəfində - təzə yolla köhnə yolun arasında 84 meqavat gücündə Şurabad Külək Elektrik Stansiyasının artıq bütün layihə-smeta sənədləri hazırlanmış, torpaqların alınması, ötürmə xətləri məsələləri həll edilib və “Vestas” şirkəti bu işə cəlb olunub.

Prezident İlham Əliyev: Yəni, gələn il işlərə başlaya bilərik?

Baba Rzayev: Bəli, gələn il işlərə başlaya biləcəyik.

Prezident İlham Əliyev: Çox yaxşı, buna ehtiyac var. Çünki bizim indi generasiya gücümüz daxili tələbatdan daha böyük həcmdə istehsal olunur. Bu da təbiidir. Çünki həmişə bizdə ehtiyat olmalıdır və eyni zamanda, yaradılmış şərait imkan verir ki, biz elektrik enerjisini ixrac edək və bu gün bu sahə ölkəmizə valyuta gətirir. İxrac da olmalıdır, daxili tələbat da təmin edilməlidir. Ancaq biz hamımız onu da bilməliyik ki, daxili tələbat artır və artacaq. İlk növbədə, artan əhali təbii ki, yeni güclərin işə salınmasını diktə edir, digər tərəfdən, ölkəmizə gələn xarici qonaqlar, onların sayı artıq bu il 3 milyonu keçibdir və təbii ki, bu xidmət sektorunda mövcud olan enerji potensialı daha da artmalıdır və əlbəttə ki, əsas məsələ artan sənayedir. Bu il qeyri-neft sektorumuzda sənaye istehsalı 14 faiz artıbdır və bizim sənayeləşmə ilə bağlı olan digər layihələr bu gün reallaşır. Sənaye parkları, sənaye zonaları, yeni sənaye müəssisələri yaradılır ki, bütün bunlar enerji tələb edir. Ona görə biz öz strateji addımlarımızı elə atmalıyıq ki, daim Azərbaycanın tələbatı, o cümlədən sənaye istehsalı ilə bağlı olan tələbat enerji generasiya gücləri ilə, yarımstansiyalarla, ötürücü xətlərlə təmin edilsin ki, heç bir problem olmasın. Necə ki, bu gün heç bir problem yoxdur. Ona görə əminəm ki, gələn il də “Azərenerji” və onun bütün kollektivi öz vəzifə borcunu ləyaqətlə yerinə yetirəcək və Azərbaycanda enerji dayanıqlılığı daim təmin ediləcəkdir.

### Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında və Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında qanunları imzalayıb. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2020-ci il üçün ehtiyac meyarının həddi 160 manat məbləğində təsdiq edilir.

***

2020-ci il üçün yaşayış minimumu ölkə üzrə 190 manat, əmək qabiliyyətli əhali üçün 201 manat, pensiyaçılar üçün 157 manat, uşaqlar üçün 170 manat məbləğində müəyyən edilir. Hər iki qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb. Fərmana əsasən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nizamnamə fondu 5 milyon manatdan 10 milyon 126 118 manata artırılır.

***

Prezident İlham Əliyev “İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında” qanunu imzalayıb.

***

Prezident İlham Əliyev Xırdalan şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# AZAL Pilotların Hazırlığı Mərkəzinin imkanlarını genişləndirəcək

***"Azərbaycan Hava Yolları" QSC (AZAL) "FlightSafety International" şirkətindən "Embraer E-190" tipli təyyarə üçün son nəsil aviasiya trenajoru əldə edir. Trenajor Azərbaycan Hava Yolları yanında Milli Aviasiya Akademiyasının Pilotların Hazırlığı Mərkəzində quraşdırılacaq.***

AZƏRTAC xəbər verir ki, müvafiq sazişi dekabrın 16-da Bakıda Azərbaycan tərəfdən AZAL-ın prezidenti Cahangir Əsgərov və Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, "FlightSafety International" tərəfdən isə aviasiya trenajorları xidmətləri üzrə icraçı direktor Con Van Maren və satış üzrə direktor Filip Delfur imzalayıblar. Müqavilənin ümumi dəyəri 11,5 milyon ABŞ dolları təşkil edir.





"FS1000 Embraer E190-E1 Level D Full Flight Simulator" yeni trenajor kompleksi "Buta Airways" aviaşirkətinin pilotlarının tam təlim və sertifikatlaşdırılması üçün imkan yaradacaq. Sözügedən trenajorun alınması ilə bağlı ilkin razılıq bu ilin noyabrında "Dubai Air Show - 2019" sərgisi çərçivəsində əldə olunub.

"Milli Aviasiya Akademiyası Azərbaycanın mülki aviasiyası üçün kadrların hazırlandığı yerdir. Buna görə biz onun maddi-texniki bazasının genişləndirilməsi üzərində daim çalışırıq. Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev ilə birlikdə akademiyanın ərazisində trenajor komleksi üçün nəzərdə tutulmuş və inşası sona çatmaqda olan binanın tikilməsi barədə qərar qəbul etmişdik. "Embraer E-190" və "Boeing 787 Dreamliner" tipli təyyarələr üçün aviasiya trenajorları yerləşdiriləcək. Bugünkü sazişin imzalanması aviasiya sahəsində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması üçün səylə çalışdığımızın daha bir təsdiqidir", - deyə AZAL-ın prezidenti C.Əsgərov bildirib.

Qeyd edək ki, sözügedən trenajorda Azərbaycanın aviaşirkətlərinin pilotları ilə yanaşı, xarici aviaşirkətlərin də pilotları təlim keçəcək.

AZAL Pilotların Hazırlığı Mərkəzi 2010-cu ildən fəaliyyət göstərir. Mərkəz nəzəri və praktiki hazırlıq şöbələrindən ibarətdir. Nəzəri tədris şöbəsi hər il 7000-dən çox mülki aviasiya mütəxəssisinin 300-dən çox kvalifikasiyanın artırılması kurslarında iştirakını təmin edir. Təcrübə təlim şöbəsində peşəkar pilot bacarıqlarının əldə edilməsi və dəstəklənməsi üçün çox əhəmiyyətli olan dörd uçuş aviasiya trenajoru fəaliyyət göstərir - "Airbus A319 / 320", "Boeing 757/767", "ATR-42/72", həmçinin "Mi-8AMT" vertolyotu.

"FlightSafety" AZAL-ın bu qabaqcıl aviasiya trenajorunun təchizatçısı kimi bizi seçdiyindən çox qürur duyur. Sözügedən trenajor ən yüksək standart olan "D" səviyyəsinə uyğundur. Bu, AZAL-ın təhlükəsizliyə sadiqliyini və pilotlarına ən yüksək keyfiyyətli və effektiv təlim verməsinin əyani təsdiqidir. Aviaşirkət ilə münasibətlərimizin genişlənməsinə və Azərbaycanda olmağımıza ümid edirik", - deyə "FlightSafety International"ın icraçı direktoru C.V.Maren qeyd edib.

## "U. S. News & World Report" jurnalının reytinq siyahısı: Azərbaycan dünyanın ən güclü ölkələri sırasındadır



***ABŞ-ın "U. S. News & World Report" jurnalı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, reytinq ABŞ-ın ən nüfuzlu siyasi nəşrlərinin birinin saytında dərc edilib. Siyahı Pensilvaniya Universitetinin "BAV Group and Wharton School" Qrupunun analitikləri tərəfindən tərtib edilib.***

Siyahı tərtib edilən zaman ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra amillər nəzərə alınıb. Siyahıda Azərbaycan 45-ci yerdə qərarlaşıb. Ölkəmiz cari ildə əldə etdiyi uğurlara görə bir neçə Avropa ölkəsini - Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoyub.

## İstanbulda erməni terrorçu tərəfindən qətlə yetirilmiş Behbud xan Cavanşirin abidəsi ucaldılacaq



İstanbulda Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri olmuş Behbud xan Cavanşirin xatirəsinə abidə ucaldılacaq. AZƏRTAC xəbər verir ki, abidə şəhərin tarixi bölgələrindən olan Beyoğlu rayonunda, Behbud xan Cavanşirin 1921-ci il iyulun 18-də "Daşnaksütyun" erməni terror təşkilatının üzvü Misak Torlakyan tərəfindən qətlə yetirildiyi "Pera Palas" otelinin qarşısında yerləşəcək. Azərbaycanın İstanbuldakı baş konsulluğunun təşkilatçılığı, İstanbul Valiliyi və İstanbul Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə hazırlanan xatirə abidəsinin açılışı dekabrın18-də olacaq.

## "The Wall Street Journal": "Boeing" "737 Max" tipli təyyarələrin istehsalına fasilə verməyi nəzərdən keçirir




ABŞ-ın "Boeing" şirkəti "737 Max" tipli təyyarələrin istehsalına fasilə verməyi nəzərdən keçirir. AZƏRTAC "The Wall Street Journal"a istinadla xəbər verir ki, şirkətin rəhbərliyi bu addımı ən məqbul seçim hesab edir.

Qeyd edək ki, uçuş idarəetmə sistemində istehsal səhvi səbəbindən ötən iki ildə "737 Max" tipli sərnişin təyyarələrində baş verən 2 qəzada ümumilikdə 346 nəfər ölüb. İndoneziya və Efiopiyadakı qəzalardan sonra Türkiyə, Çin, Efiopiya, İngiltərə, Almaniya, Fransa, Niderland, Avstriya başda olmaqla bir çox ölkə "Boeing 737 Max" tipli təyyarələri üzrə əməliyyatları müvəqqəti dayandırıb və hava məkanlarını da bu təyyarələrə bağlamışdı.

## Almaniyalı deputat: Paşinyanın Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi şərh etməsi cəfəngiyyatdır



Nikol Paşinyanın Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi şərh etməsi cəfəngiyyatdır. AZƏRTAC Almaniyada fəaliyyət göstərən "Alumni" onlayn platformasına istinadən xəbər verir ki, bu sözləri Bundestaqda Xristian Demokratik Partiyasını təmsil edən Nikolas Löbel Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən səsləndirilən təxribat xarakterli fikirləri şərh edərkən deyib.

Deputatın sözlərinə görə, Almaniya üçün tam aydın məsələdir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı status-kvo saxlanıla bilməz. Dağlıq Qarabağ coğrafi cəhətdən Azərbaycana aiddir və Azərbaycanın tərkib hissəsidir. BMT-nin bir sıra qətnamələri var ki, bu ərazilərin Azərbaycana aid olduğunu açıq şəkildə təsdiq edir. "Biz istəyirik ki, uzun müddətdən bəri davam edən münaqişənin sülh yolu ilə həlli istiqamətində mümkün olan hər şeyi edək", - deyə Nikolas Löbel bildirib.

Xatırladaq ki, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi beynəlxalq hüquq normalarına zidd olaraq işğal edilib. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma yurdlarından didərgin düşüb.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyətin açılışında iştirak edib











**_Dekabrın 16-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib._**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Nizami rayonu, Məmmədəli Şərifli küçəsi 84, 86, 88, 90, 92 ünvanlarında 1300 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 14 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.









Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib, 9 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Heydər Əliyev Sarayında növbəti “Zima-2019” Beynəlxalq Uşaq Festivalında iştirak edib

***Dekabrın 14-də Heydər Əliyev Sarayında “Beat Group” şirkətinin təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə növbəti “Zima-2019” Beynəlxalq Uşaq Festivalının qala-konserti keçirilib.***

Konsertdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Bu il festivalda iştirak etmək üçün 110 uşaq müraciət edib və təşkilat komitəsi onların arasından 20 ən yaxşı ifaçını seçib. Tədbirin aparıcıları əvvəlki festivallardan da yaxşı tanıdığımız gənc artistlər Rüfət Məmmədov və Suel Heybətova olublar.

Konsertdən əvvəl iştirakçılar qırmızı xalının üzərindən keçiblər və festivalla bağlı təəssüratlarını bölüşüblər. “Səs. Uşaqlar” şousunun altıncı mövsümünün qalibi Ərcan Maksim “Zima” festivalının yüksək səviyyədə təşkilindən heyranlığını ifadə edib, Bakıya gəlmək və Azərbaycan tamaşaçıları qarşısında çıxış etmək imkanı yaratdıqlarına görə təşkilatçılara təşəkkürünü bildirib. Festivalın aparıcısı Rüfət Məmmədov iştirakçıların hamısına uğurlar arzulayaraq deyib ki, tamaşaçıları maraqlı çıxışlar gözləyir. “Zima” festivalı sayəsində çoxlu yeni dostlar tapmaq olar”, - deyə o vurğulayıb.

Sonra maraqlı konsert proqramı başlayıb. Xalq artisti Aygün Kazımova və Cəlal Bəşirli birlikdə “Qara gözlər” mahnısını ifa ediblər. Əməkdar artist Sevda Ələkbərzadə isə Fəxriyyə Əliyeva ilə səhnəni paylaşaraq “Qal sənə qurban” mahnısını təqdim ediblər.

Gənc istedadların parlaq ifaları böyük maraqla qarşılanıb. Sarayın səhnəsində, həmçinin Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, Fransa və Böyük Britaniya təmsilçiləri də çıxış ediblər.

“Zima” festivalı, ilk növbədə, uşaqların musiqi bayramıdır. Hər bir gənc ifaçı böyük səhnəyə çıxmaqla burada artıq qalib olur. Sonda bütün iştirakçılara xüsusi diplomlar və xatirə hədiyyələri təqdim edilib.

“Zima” festivalı ildən-ilə daha parlaq, maraqlı və genişmiqyaslı olur. Festival iştirakçıları artıq müxtəlif nüfuzlu beynəlxalq müsabiqələrdə uğurla iştirak ediblər. Belə ki, “Zima-2017” festivalının bir qrup iştirakçısı “Vo ves qolos” Beynəlxalq Musiqi Televiziya Festivalının qalibi olub. Fərqlənənlər arasında Rüstəm Kərimov da var. O, “San-Remo Junior-2017” uşaq-gənclər musiqi yaradıcılıq festivalının xüsusi mükafatına layiq görülüb. “Zima-2018” festivalının iştirakçısı Aleksandr Zazaraşvili isə Ukraynada “Qolos. Deti” populyar televiziya müsabiqəsinin qalibi olub.






















## Türkiyə Prezidenti: ABŞ Senatının "erməni soyqırımı" qətnaməsi tamamilə siyasi mahiyyət daşıyır



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ATV televiziya kanalına müsahibəsində bildirib ki, ABŞ Senatının qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı qətnaməsi tamamilə siyasi mahiyyət daşıyır. O əlavə edib ki, Birləşmiş Ştatların bu addımı iki ölkənin müttəfiqlik ruhunda tərəfdaşlığına ziddir. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Türkiyə Prezidenti Ankaranın da adekvat addımlar ata biləcəyini, hətta Adanadakı İncirlik və Malatyadakı Kürecik hərbi bazalarının Amerika əsgərlərinə bağlanılması məsələsini nəzərdən keçirəcəyini vurğulayıb. Onun sözlərinə görə, ABŞ Türkiyədəki hərbi bazada nüvə başlıqları olduğunu da unutmamalıdır.

Rəcəb Tayyib Ərdoğan müsahibəsində qeyd edib: "Biz ABŞ-da gərginləşən daxili qütbləşmənin Türkiyəyə mənfi təsirindən təəssüflənirik. Bəzi qruplar bizim ölkəmizə təzyiq göstərilməsindən Trampı zəifləmək üçün istifadə edirlər. Amma biz də adekvat addımlar atacağıq. Açıq danışmaq istəyirəm: hinduların taleyini xatırlamadan Amerikadan danışmaq olarmı? Bu, ABŞ-ın tarixində rüsvayçı bir səhifədir. Analoji hadisələr Afrikada da baş verib. Fransanın Ruanda və Əlcəzairdə törətdiyi qırğınları unutmaq mümkünmü?"

Türkiyə Prezidenti Qərbin irqçilik və müstəmləkəçilik tarixinə aid sənədlərin yenidən qaldırılacağını bildirib. O xatırladıb ki, qırğın və soyqırımı faktları mövcud olduğu halda həmin ölkələrin Türkiyənin şanlı tarixinə iftira atmaq haqqı yoxdur. R.T.Ərdoğan əlavə edib ki, 1915-ci ildə ermənilər Osmanlı imperiyasına təcavüz edən rus qoşunlarını dəstəkləyib və bu səbəbdən köçürülüblər. Faciələr isə həm türk, həm də qarşı tərəfdən baş verib. Ankara bir neçə il əvvəl həmin hadisələrin tarixçilər tərəfindən araşdırılması məqsədilə birgə komissiya yaratmağı təklif edib.

## BP bu il Azərbaycandakı sosial investisiya layihələrinə 4 milyon dollar xərcləyib



BP və tərəfdaşları cari ildə Azərbaycandakı sosial investisiya layihələrinə təxminən 4 milyon ABŞ dolları vəsait xərcləyib. AZƏRTAC xəbər verir ki, bu barədə "BP Azerbaijan" şirktətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib. O bildirib ki, ümumilikdə isə, fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə 84 milyon dollarda çox vəsait xərcləyib.

## Eldar İbrahimov: Həyata keçirilən islahatlar ölkəmizin daha da güclənməsinə xidmət edir



"Dünyanın iqtisadi və siyasi həyatında baş verən mənfi proseslər fonunda ölkəmizin bir çox iqtisadi sahələrində artımın əldə olunması şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasəti sayəsində mümkün olub. Məhz bunun nəticəsidir ki, qlobal səviyyədə hələ də davam edən çox ağır maliyyə və iqtisadi, habelə siyasi böhranların təsirindən ölkəmiz çox cüzi itkilər verməklə alnı açıq çıxıb". Bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib. E.İbrahimov bildirib ki, bütün bunlar sübut edir ki, əsası Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan iqtisadi və sosial siyasət Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və dövrün tələbinə uyğun olaraq təkmilləşdirilir. Onun sözlərinə görə, dövlət başçısının milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrini təsdiq etməsi bunun əyani sübutudur.

"Dövlətimizin başçısı ölkəmizin qüdrətinin daha da möhkəmlənməsi, ölkə əhalisinin maddi-rifah halının yaxşılaşması, müstəqil Azərbaycan Respublikasının dünyada reytinqinin daha da yüksəlməsi üçün daim axtarışdadır və bu məqsədə çatmaq üçün ən iri layihələrin icrasını təmin etmək əzmindədir. Həyata keçirilən islahatlar da məhz ölkəmizin daha da güclənməsinə xidmət edir"- deyə, komitə sədri vurğulayıb.

## Milli mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur



Xalqımızın mənəvi dəyərlərini zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Milli-mənəvi dəyər anlayışı özündə böyük bir mənanı ehtiva edir. Mənəvi dəyər dedikdə əsrlər boyu xalqımızın yaratdığı əxlaqi və maddi dəyərlər sistemi nəzərdə tutulur. Təbii ki, hər bir xalqın varlığı, onun milli kimliyi ilk növbədə onun milli-mənəvi dəyərlərində ehtiva və əks olunur. Hər hansı bir etnosun milli-mənəvi dəyərlər sistemini onun əlindən tamamilə almış olsaq, o zaman həmin etnosun adından savayı heç nəyi qalmaz.




"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi və Milli Mənəvi Dəyərlərin Təbliği Fondu ilə birlikdə Azərbaycanın ən qədim şəhərlərindən biri olan Şəki şəhərindəki "Marxal" İstirahət Kompleksində "Milli mətbəximizin zənginliyi tariximizdir" adlı tədbir keçirilib. Tədbirdən öncə qonaqlar Dünyanın Tarixi Şəhərləri Liqasına üzv olan qədim Şəkinin gəzməli-görməli yerləri, xüsusən Şəki Xan Sarayı ilə tanış olublar.





Tədbirdə "Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyinin sədri, siyasi ekspert Rasim Quliyev çıxış edərək rəhbərlik etdiyi Mərkəzin fəaliyyəti, gələcək planları, qarşıda duran vəzifələrdən danışıb. R.Quliyev həmçinin tədbir haqqında ətraflı məlumat verərək milli mətbəximizin xalqımızın tarixində, mədəniyyətində, xarici ölkələrdə apardığımız təbliğatda mühüm yer tutduğunu qeyd edib. Bildirib ki, tədbirin keçirilməsində Şəki şəhəri heç də təsadüfən seçilməyib. Çox böyük inkişaf yolu keçən Şəki mətbəxi xalqımızın mətbəx mədəniyyətinin formalaşmasına özünə məxsus töhfəsini verib. Şəkinin məşhur şirniyyatçılarının əldə etdiyi təcrübə, vərdiş, bilik və bacarıqlar daim zənginləşib və bu günümüzə qədər gəlib çatıb.



Heydər Əliyev Mərkəzinin Şəki bölməsinin, Şəki "Yuxarı Baş" Dövlət Tarix Memarlıq Qoruğunun, Şəki şəhər "Sənətkarlar Evi" nin sədrləri Rəşadət Sadıqov, Yusif Məmmədov, Mənsur Əlizadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölməsinin əməkdaşı Samir Salehov çıxış edərək Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği ilə bağlı görülən işlərdən danışıblar. "Müasir Azərbaycan Qadını" İctimai Birliyinin sədri Kəmalə xanım Muradlı, "Elin Səsi" Milli Dəyərlərimizə Dəstək" Təşkilatının təmsilçisi Ziya Yaqublu, yenilik.az və aydınlıq.az saytlarının baş redaktoru Xanlar Fətullayev, Azərbaycan Milli Kulinariya Mərkəzinin direktorunun müavini Ceyran Əsgərova, "Simurq Azərbaycan" Mədəniyyət Assosiasiyasının vitse-prezidenti Svetlana Bayramova tədbir barədə öz fikirlərini bildiriblər.

***Azər Ələşrəfov***
***İnformasiya Mərkəzi İctimai Birliyinin Mətbuat xidmətinin rəhbəri***

## Şəhid vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramının icra səviyyəsi 97 faizə çatıb

Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr, dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar, vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar, bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin ilk aylarında imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərmiş oldu. İmzalanan sənədlər əsasında sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Görülən işlər, bir daha təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində, əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb və insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanının şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində olan növbəti addım idi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrası üçün 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. Dövlət başçısının müvafiq Fərmanının icrası üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid hərbi qulluqçuların və şəhid polis əməkdaşlarının vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Belə ki, yaxın günlərdə daha 86 şəhidin 132 vərəsəsinə də 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək. Birdəfəlik ödəmə vərəsələrin bank hesablarına köçürüləcək və bu barədə onlara rəsmi bildiriş göndəriləcək.



Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramının icra səviyyəsi, artıq 97 faizə çatıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Son vaxtlar mətbuatın da gündəmində olan Qaregin Njde adı çoxlarında maraq doğurdu. Ermənistanda "erməni dövlət xadimi" adlandırılan bu hərbi cinayətkara İrəvanda heykəl qoyulması və bu ənənənin Rusiyanın Armavir şəhərində də davam etdirilməsi ciddi təpkilərlə qarşılandı. MDB Dövlət Başçılarının Aşqabad sammitində Azərbaycan Prezidenti İlham Əliyev İrəvanda erməni faşizminin banisi Qaregin Njdeyə heykəl qoyulmasını, nasistlərlə əlbir olan birisinin qəhrəmanlaşdırmasını pisləməsi də diqqətdən yayınmadı. Nikol Paşinyanın İlham Əliyevi erməni xalqına hörmətsizlikdə, məlum tarixi faktları və rəsmi sənədləri Azərbaycan prezidentinin şəxsi rəyi kimi təqdimatda günahlandırmaq cəhdini rus ictimaiyyəti həmən cavablandırdı. Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasist havadarı Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyadı və az sonra xatirə lövhəsi söküldü. Rusiyalı hərbi ekspert İqor Korotçenkonun "Beynəlxalq hüquq normaları və tarixi gerçəklik baxımından Qaregin Njde hərbi cinayətkar və nasistlərin əlaltısı olub.***



# Qaregin Njde və onun "Tseqakron" təlimi

## *Yaxud, Nikol Paşinyandan soruşmaq lazım, kimin abidəsini sən qorumaq istəyirsən?!*

Mən cənab Paşinyana Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr olunan 12 cildlik "1941-1945-ci illər Böyük Vətən Müharibəsi" ensiklopediyasını oxumağı tövsiyə edərdim" deyimi isə yetərincə arqumentli cavab idi.

Bu baxımdan Egey Universitetinin professoru Aydın İbrahimovun hələ 2010-cu ildə Türkiyədə dərc olunmuş yazısı da diqqətçəkən oldu. Njdenin "Tseqakron" (qatı millətçi, faktiki faşist ideologiyasına malik təşkilat) ideoloji təliminin mahiyyətini açıqlayan bu yazını Egey Universiteti Türk Dünyası Araştırmalar İnstitutunun dosenti Vəfa Kurban Azərbaycan dilinə cevirmiş və 9 il sonra yenidən gündəmə gətirmişdir. Yazını təqdim edirik.

1930-cu illər də Bolqarıstandan ABŞ-a gedən və erməni millətinin qəhramanı sayılan Qaregin Njde (Ter-Arutyunyan) tərəfindən yaradılmış ideoloji təlimə "Tseqakron" adı verilmişdi. Njdenin əsas məqsədi, ana köklərindən uzaqlaşan erməni diasporası və xüsusilə də gəncləri sözü gedən ideologiya ətrafında yenidən səfərbər edərək Türkiyəyə qarşı bir hərəkat meydana gətirmək idi. Tezislərimizi əsaslandırmaq üçün 2004-cü ildə Ermənistanda nəşr olunan "Qaregin Njdenin təlimi" kitabını nəzərdən keçirərək şəhr edəcəyik.

Daşnak təşkilatının üzvü olmuş erməni komandir Qaregin Njde, 1922-ci ildə Təbrizdən dönərək Sofiyada yerləşir və türklər əleyhinə ilk yazılarını da bu tarixdən başlayaraq nəşr etdirməyə başlamışdı: "Lernhayastanın Qəhrəman Müqaviməti" (Buxarest, 1923), "Gündəliyimdən səhifələr (Qahirə, 1924)", "Övladların atalarına qarşı mübarizəsi (Selanik, 1927)" və s. Həmin dövrdə və daha sonrakı illərdə Njde daşnaklar tərəfindən buraxılan "Hayastan" (Plovdiv), "Araks" (Sofiya), "Azatamart" (Paris) kimi müxtəlif jurnal və qəzetlərdə aktiv rol almışdı. Bütün yazılarının tək hədəfi türklər və Türkiyə; tək məqsədi də xarici ölkələrə dağılmış ermənilərdə türklərə və Türkiyəyə qarşı genetik bir nifrət aşılamaq idi. Bu sözdə "nəzəriyyəçi" bir müddət sonra erməni milliyətçi nəzəriyyəsini ortaya ataraq Mussolini və Hitler kimi soydaşları sırasında ad qazandı. Njde 1932-ci ildə Bolqarıstanda nəşr etdirdiyi "Soy Ruhunun Hərəkatı" kitabı və daha sonra "Xrofk" jurnalında çıxan "Tseqakron bir zəfər gücüdür" adlı məqaləsi ilə erməni nasional-sosializminin əsaslarını ortaya qoydu.

1933-cü ildə Parisdə daşnakların 12-ci konqresində Njde tərəfindən təqdim edilən Erməni diasporunun antitürk ruhlu təlimatları üç əsas prinsipi ehtiva edirdi və konqresin yekun bəyannaməsində yer almışdı. Bunlar,

1. Ermənliyin xaricdə funksional fəaliyyətini genişləndirərək onu Ermənistanı müdafiə qabilyyəti durumuna gətirmək,

2. Erməni gəncliyinin partiyadan kənar fəaliyyətini gücləndirmək,

3. Bütün gücləri Türkiyəyə qarşı bir cəbhədə səfərbər etmək idi.

Bu tezisləri həyata geçirmək üçün 1933-ci ildə Njde partiya tərəfindən ABŞ-a göndərilmişdi. Orada Njdeye iki tapşırıq verilmişdi. Birincisi, erməni terrorçu Kopernik Tandırçyanla birlikdə Türkiyənin ABŞ-dakı səfiri Muxtar bəyə sui-qəsd etmək, ikincisi isə qısa müddət içərisində ABŞ-da "Tseqakron hərəkatı"nı yaratmaq. Fanatik düşüncə, güçlü xitab qabiliyyəti və olduqca təsirli bir xarizmaya sahib olan Qaregin Njde qısa müddətdə ermənilərin sıx yaşadığı yerlərdə "Tseqakron" təşkilatları (Tsexakron Uhter) qurdu.

Njde 1934-cü ilin payızında Sofiyaya qayıdır və "Tseqakron"un Avropada qurulmasına başlayır. Yaxınlaşan dünya müharibəsi ərəfəsində müxtəlif mediya orqanları vasitəsilə erməniləri Türkiyəyə qarşı silahlı hücumlar təşkil etmələri üçün ideoloji cəhətdən hazırlayır və cəmiyyət olaraq təmiz bir irqə yönəlmənin yolunu göstərirdi. Lakin Avropadaki vəziyyət Amerikadan fərqli idi; müharibə gərginliyi son həddindəydi və əhatə dairəsi də olduqca dar idi. 1945-ci ildən sonra isə hərəkat zəiflədi və tarixə kömülmüş kimi göründü. Ancaq 1991-ci ildən günümüzədək Njdenin təlimi yenidən aktivləşdi və hətta qonşu Ermənistanın rəsmi ideologiyası halına gəldi.

İndi isə, "Tseqakron nədir?", "Biz niyə ona qarşıyıq?", "Erməniləri hara yönəldir?" kimi suallara cavab verilməlidir. Əslində bu cavablar vəziyyətin qorxunc taleyi haqqında daha aydın fikirlər yaradır. 1932-ci ildə, Sofiyada çap edilən "Xrofk" jurnalında Njde yazırdı: "Bu günə kimi millətimizin yaşadığı əzabların tək səbəbi irqimizin formalaşmamasıdır, biz erməniyik və ermənilik ideologiyası ətrafında toplanmalıyıq, yoxsa bəşəriyyətin ən əzilmiş parşası halına gələrik". Belə bir düşüncə tərzinə sahib olan Qaregin Njde, ortaya bir düşüncə və "beyinyuma" üçün material qoymalı idi. İkisi də tapılmışdı: Konsept: TÜRK DÜŞMƏNÇİLİYİ; Material: TSEQAKRON.

Njde faşist əsaslar üzərində formalaşdırılan nəzəriyyəsini əsas olaraq gəncələrə və diaspora yönəltmişdi. Njdeyə görə, erməni cəmiyyətində, xüsusilə də yaşlı nəsildə Türkiyəyə qarşı olan şüur zəifləmişdi; eyni meyilin gənc nəsildə də inkişafı milli bir təhlükədir. Bu səbəbdən bütün gənc erməni nəslinə "Tseqakron" ideyası aşılanmalıdır. Təlimin əsasını da ermənilərin xüsusi (özəl) irq olması və fərqli düşüncə tərzinə sahip olduqları fikri təşkil edirdi. Erməni soyu, Njde üçün ən vacibidir; dindən və antropologiyadan daha üstündü.

Njde, "Tseqarakon"u iki əsas prinsip üzərinə qurmuşdu:

1. Bütün başımıza gələn bəlaların səbəbi biz özümüzük.

2. Bizə lazım olan gücü özümüzdə axtarmalıyıq.

"Tseqakron" təlimi aşağıdakı kimi inşa edilir: "Mən öz Soyumu (tsex) bilirəm, mən öz nəslimə güvənirəm, mənim soyum Tanrıya daha yaxındır, ali irqdir, mən cismimdə "Tseqarakon"u daşıyıram".

Eyni illərdə İtaliyada faşizm, Almaniyada isə milli sosializm düşüncələri ictimai kütlələrə sirayət edilməkdəydi. Başqa bir deyişlə, Ermənistan o dövrdə müstəqil bir dövlət olsaydı, mütləq erməni faşist quruluşundan bəhs edəcəkdik. Fikrimizcə, Anadoludakı və Azərbaycanda erməni dirənişinin əsasında sözü gedən düşüncə yer alır.

Njdəyə görə, erməni xalqı aşağıdakı kultlarla həyatına davam etməlidir: Vətən kultu, Qan kultu, Dil kultu, Vətən uğrunda öz həyatını qurban etmə kultu, Ulular kultu, Güc kultu, Öndər kultu. Göründüyü kimi dəyişməyən prinsiplər burada da vacibliyi ilə diqqətdədir.

Vətən kultu: erməni soyunun doğum yerinə hörmətidir. Erməni gənci, bütün səyini və quvvəsini Ermənistan ərazisinin genişləndirməyə sərf etməli və onun bundan böyük xoşbəxtliyi olmamalıdır.

Dil kultu: "Tseqakron"un hər bir erməninin bir-biriylə danışarkən yalnız erməni dilinin istifadəsini tövsiyyə edir. Erməni dilini bilməyən soyun nümayəndəsi olaraq qəbul edilə bilməz. Yəni erməni düşüncəsi böyük ölçüdə dilə bağlıdır, əgər dil olmasa və xaricə dağılmış erməni birliyini təmin etmək mümkün olmaz. (Nidje bolşevik zülmü altında yaşayan erməniləri özündən saymır, onları qəbul etmir və bütün ümidlərini diasporaya bağlayırdı).

Öz həyatını qurban etmə kultu: Soyunu qorumaq üçün bu yolda ölmək bir şərəfdir və "...Aslan kimi mübarizə etməliyik".

Ulular kultu: "Tseqakron"un nəsillər arasında əlaqələrin davam etməməsini ən böyük çatışmazlıq olaraq qəbul edir. Xüsusilə Ana Vətən torpaqları üzərində fəaliyyətin davamı yeni nəsil üçün qida qaynağı olmalıdır.

Güc kultu: "Tseqakron" gücə xüsusi yer verir. Njdeye görə, güclü qazanan olar, haqlı olmaz; dünya, güclü olanın qarşısında boyun əyər.

Öndər kultu: Hər soyun başında xalqın taleyini müəyyən edən bir lider olmalıdır. "Tseqakron"un, soy üzvlərinin öndərinin iradəsinə tabe olmasını tələb edir. Ermənilik, Njdeyə görə, hər şeydən üstündür. "Sən əvvəl ermənisən, sonra insansan! Ermənilik hər şeydən üstündür" Buna görə də "Tseqakronu" ermənilərin maraqlarını hər hansı xalqın mənfəətlərindən daha üstün tutar. Məsələn, "Tseqakron" nizamnaməsinin ana səhifəsi bu şüarla başlayır: "Lozanna? Xeyr, Xeyr, Xeyr, heç bir zaman qəbul edilə bilməz". Və fikir belə davam edir: "Bir xalqın ana torpağı digər xalqın daimi vətəni ola bilməz".

"Tseqakron" ermənilərin yalnız torpaq üçün vuruşmağa hazır olmasını tələb etmir, bu təlim daha irəli gedərək, ermənilərdən türklərə qarşı mərhəmətsiz intiqam tələb edir. Njde belə yazır: "Bizim aramızdakı düşmənlik tarixi deyil, daha çox biolojidir və biz bu xalqı hansı üsulla olursa-olsun yox etməliyik".

"Tseqakron" ilə digər qeyri-insani təlimlər (nəzəriyyələr) arasında elə də böyük fərg yoxdur. Qaregin Njde təlimi şərh edərkən deyir: "İtalyanların faşizmi var, almanların nasizmi, yəhudilərin isə sionizmi...Ermənilərinsə "Tseqakron"u var... Biz 1919-cu ildə bu fikirləri meydana gətirərkən, Mussolini öz düşüncələrini daha yeni-yeni kəşf edirdi. Hitler ərazilərin genişlənməsini hələ təsəvvür etmirdi. Nasistlərin fəlsəfəsində vətən sərhədi heç bir məna daşımamaqdadır. Biz isə xalqımıza onun Ana torpağı olan Erməni Dağlıq yeri vermək istəyirik. Hitler yəhudiləri insanlıq üçün bir bəla olaraq görməkdə idi və bundan dolayı onları yox etməyi hədəfləyirdi. Bizim soyumuzun düşmənləri isə Türklərdir, onlar erməniləri yer üzündən silirdilər və məmləkətimizin torpaqların böyük hissəsini ələ geçirmişdilər" və s. Göründüyü kimi "Tseqakron" bir nasist təlimdir və dünya ermənilərinin də türklərə, o cümlədən bizə-azərbaycanlılara qarşı davranışlarının əsasını Njdenin düşüncələri təşkil edir.

Əfsuslar olsun ki, sözü gedən bu barbar düşüncə sadəcə cəmiyyət daxilində təsirli deyildir, dövlət idarəçiliyini də təsiri altına almışdır. Nə yazıqlar ki, Ermənistanın Respublikaçılar Partiyasının nizamnaməsində deyilir: "Partiyamızın əsas ideologiyası Qaregin Njdenin təlimi üzərində qurulmuşdur". Bu bir partiyanın düşüncəsidir, burada nə var ki, deyə bilərsiniz. Lakin bu partiya uzun illər Ermənistanda iktidarda idi və Njdenin düşüncəlirini Qarabağda uygulamada göstərmiştilər. İndi isə məqaləmizin adını yenidən oxuyun.

Tseqakron - ermənicə iki sözün - irq və din kəlmələrinin birləşməsidir. Digər bir mənası isə "irqin saflığı, tanrıdan xüsusi tapşırıq və s". Başqa bir ifadə ilə bir növ erməni nasizmi. İndi Nikol Paşinyandan soruşmaq lazım, kimin abidəsini sən qorumaq istəyirsən?!

***Aydın İbrahimov***
***Egey Universiteti Beynəlxalq Əlaqələr kafedrasının professoru Türkiyə, İzmir.***

# “Xalq üçün” devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

## SABUNÇU

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Sabunçu rayon təşkilatında Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərlə seçicilərin görüşü keçirilib.






Görüşdə YAP-ın Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək bildirib ki, ölkə Prezidenti İlham Əliyevin uğurlu və düşünülmüş siyasəti nəticəsində əldə edilən nailiyyətlər, onu deməyə əsas verir ki, Azərbaycan getdikcə yüksək zirvələr fəth edəcək. O, respublikamızda, bütün sahələr kimi, xüsusilə, gənclərlə iş sahəsinə də dövlətimiz tərəfindən böyük qayğı göstərildiyinə diqqət çəkib, rayonda gənclərin hərtərəfli inkişafı, ictimai-siyasi fəallığının artırılması üçün əlverişli şərait yaradıldığını nəzərə çatdırıb. M.Abasquliyeva qeyd edib ki, partiyamız fəaliyyəti ərzində, xalqın etimadını əməli işi ilə doğrultduğuna görə, bələdiyyə seçkilərinə də ciddi hazırlaşaraq, növbəti dəfə seçicilərin yekdil səsini qazanmaq əzmindədir. Ölkəmizdə bələdiyyə fəaliyyətinin genişləndiyinə toxunan təşkilatın sədri bunu görülən işlərlə əlaqələndirib: “Seçkilərdə növbəti dəfə fəallıq göstərməklə, istədiyiniz namizədə səs verə bilərsiniz. Çünki ölkəmizdə mövcud olan demokratik mühit buna hərtərəfli şərait yaradır”.

Görüşdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov, 130 saylı ərazi ilk partiya təşkilatının sədri Agasəid Orucov, 188 saylı ərazi ilk partiya təşkilatının sədri Sabir Mahmudov və başqaları çıxış edərək, bələdiyyə seçkisi günü hər kəsi fəal iştirak etməyə və səsvermə hüququndan yararlanmağa çağırıblar.

Görüş geniş diskussiya şəraitində keçib.

## XAÇMAZ

YAP Xaçmaz rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar təşviqat kampaniyası çərçivəsində Xudat şəhəri seçiciləri ilə keçirilən görüşdə YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev ölkəmizdə həyata keçirilən uğur-





lu siyasətin nəticəsi olaraq bugünkü inkişaf, gələcək hədəflər və partiyanın bələdiyyə seçkiləri ilə bağlı qarşısında duran məsələlərdən danışıb: “Ötən müddət ərzində, keçirilən bütün seçkilərdə qalib gələn partiyamız uğurlu fəaliyyəti ilə xalqın etimadını doğruldub. Məhz bu səbəbdən də, YAP ölkəmizdə analoqu olmayan siyasi qüvvə olduğunu bir daha təsdiqləyib”.

Tədbirdə qərargah üzvləri Abasyar Heydərov, Ayaz Mirzəyev, Rəhman Xeyirov, bələdiyyə üzvlüyünə namizədlər Elman Allahyarov, Ofelya Sərkərova və başqaları çıxış edərək, bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini bildirməklə, ölkəmizin iqtisadi qüdrətinin durmadan inkişafına çalışan YAP namizədlərinə növbəti dəfə yekdilliklə səs verəcəklərini bildiriblər.

## QARADAĞ

Yeni Azərbaycan Partiyasının Qaradağ rayon təşkilatı tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, təbliğat-təşviqat kampaniyası ilə bağlı seçicilərlə Korgöz qəsəbəsində keçirilən görüşdə partiyanın rayon təşkilatının əməkdaşı Ramiz Yusubov əvvəlcə namizədliyi irəli sürülmüş YAP üzvləri



barədə ətraflı məlumat verib: “Partiyamızın hər bir üzvü xalqın yüksək etimadını fəaliyyəti ilə doğrultmaq üçün daim əzmlə çalışır. Çünki YAP xalqa xidmət missiyası ilə ölkəmizdə analoqu olmayan partiya kimi daim seçilir və seçicilər tərəfindən bütün seçkilərdə yekdil səslə dəstəklənir”.



Sonra bələdiyyə üzvlüyünə namizədlər çıxış edərək, fəaliyyətləri və platformaları barədə geniş məlumat verdikdən sonra seçicilərin çoxsaylı suallarını cavablandırıblar.

Görüşdə qəsəbə sakinləri bələdiyyə seçkilərində də yekdilliklə iştirak edəcəklərini və əməli işləri ilə nüfuz qazanan partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

## TƏRTƏR

YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP tərəfindən namizədlikləri irə-








li sürülmüş bələdiyyə üzvlüyünə namizədlər Yuxarı Qapanlı və Hüsənli bələdiyyələrində seçicilərlə görüş keçirilib.

Görüş-mitinqdə YAP rayon təşkilatının təbliğat-təşviqat

# "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

qrupunun üzvlərindən Həsənov Cümşüd, Abbasov Rəfael, bələdiyyə üzvlüyünə namizədlərdən Hətəm Nuruyev, Aytəkin Rüstəmova, kənd sakinlərindən Məmmədov Elşən, Axundov İlham və Allahverdiyev Sadiq və başqaları dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində ölkəmizin hakim partiyası olan YAP-ın namizədlərinə səs verəcəklərini bəyan ediblər.

## ŞAMAXI

23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Şamaxı rayon bələdiyyələri üzrə namizədliyi irəli sürülmüş qadınlarla seçicilərin görüşü keçirilib.



Öncə, tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında fəal iştirak etdiyini söyləyib: "Azərbaycan qadınları intellektual imkanları, yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verirlər. Müasir Azərbaycan gənc qadınları unutmurlar ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində sahib olublar".

Rayon təşkilatının sədri, onu da vurğulayıb ki, bələdiyyə seçkilərində namizədlərin sırasında qadınların və gənclərin çoxluq təşkil etməsi YAP-ın onlara olan diqqət və qayğısının nəticəsidir.

Gənc qadın namizəd Nuranə Məmmədova və Güney Məmmədova bildirib ki, seçkilərdə də gənclərə və xanımlara üstünlük verilməsi, onun göstəricisidir ki, Azərbaycan dövləti və Yeni Azərbaycan Partiyası gənclərin və qadınların inkişafına böyük diqqət və qayğı ilə yanaşırlar. Çıxış edənlər seçki günü ellikliklə seçkilərdə fəal olmağa və partiyamızın irəli sürdüyü namizədlərə səs verməyə səsləyiblər.

Milli Məclisin deputatı Kamilə Əliyeva da çıxışında qadınların Azərbaycanın ictimai-siyasi həyatında, öncül sıralarda olduğu kimi, bu seçkilərdə də fəallıq nümayiş etdirəcəklərini, partiyanın namizədlərinə səs verəcəklərinə əminliyini söyləyib.

Görüşdə YAP qadınlar şurasının sədr müavini Məhəbbət İbrahimova da qadınlar müstəqil ölkəmizin gələcəyi olan kəslər kimi, seçki amilinə çox diqqətlə yanaşaraq bildirib ki, seçkilərdə iştirak etmək Vətənimizə, dövlətçiliyimə sədaqətimizi və sahibliyimizi bildirir: "Seçkilərdə iştirak etməklə, biz dünyaya varlığımızı nümayiş etdiririk. Bu mənada, bütün qadınlarımızı Vətənimizə, dövlətçiliyimizə sədaqətimizi, bağlılığımızı, sahibliyimizi nümayiş etdirmək üçün seçkilərdə iştirak edək və xalq üçün Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verək" çağırışını edib.

Sonda çıxış edən digər seçicilər də xalq üçün Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

Seçicilərlə görüşü yüksək əhval-ruhiyyə şəraitində keçib. Sonda seçiciləri maraqlandıran suallar cavablandırılıb.

## ASTARA

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Astara rayon şöbəsi bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası ilə bağlı növbəti görüşü rayonun Ərçivan qəsəbə sakinləri ilə keçirilən görüşdə Seçki Qərargahı Astara






rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Firudin Əhmədov çıxış edərək, son 16 ildə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yüksək inkişaf yolu keçdiyini, reallaşdırdığı uğurlu layihələr, apardığı islahatlar nəticəsində, bütün Azərbaycanda olduğu kimi, Astara rayonunda da böyük işlər görülüb: "Bu uğurlu siyasət dövlətçiliyimizin, xalqımızın inkişafına yönəlmişdir. Son illərdə insanların yaşayış səviyyəsində əhəmiyyətli nailiyyətlərin əldə edilməsi, Azərbaycanın sosial simasının dəyişməsi, Yeni Azərbaycan Partiyasının ictimai-siyasi nüfuzunu və gücünü daha da artırır. Biz həmişə haqqa-ədalətə önəm verən, xalqını, Vətənini dərin məhəbbətlə sevən, fəaliyyəti ilə əməlləri bir olan, qətiyyətli rəhbər, müdrik siyasətçi Prezident İlham Əliyev Cənablarına arxalanırıq və həmişə də Azərbaycan ən yüksək zirvələr fəth edəcək".

Görüşdə rayon ağsaqqalarından Gülağa Rzayev, Ələsgər Əliyev, Ərçivan qəsəbə sakinləri Xanlar Əliyev, Məmməd Hüseynov, Əhməd Həsənov və digərləri bildiriblər ki, həmişə bir olan xalqımız bu seçkilərdə də birlik nümayiş etdirəcək, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər.

## KÜRDƏMİR

23 dekabr tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun gənc namizədləri ilə Qocalı, Beyi, Pirəköcə, Xəlsə kəndlə-







rinin seçiciləri ilə keçirilən görüşdə Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin sədri Ağali Kərimli görülən işlər barədə məlumat verərək bildirib ki, bütün seçkilərdə olduğu kimi, bu seçkilərdə də alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi təbliğat-təşviqat kampaniyasında yüksək seçki əhval-ruhiyyəsi müşahidə olunur: "Partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və sistemli islahatlar nəticəsində, ölkəmiz son illərdə yeni uğurlar qazanmış, xüsusilə, cəmiyyətimizdə gənclərin rolu artmışdır. Azərbaycan gənci bu gün ölkəmizin siyasi, mədəni, ictimai həyatında mühüm yer tutur, dövlətimiz və partiyamız bacarıqlı, istedadlı gənclərin uğurla irəli getmələri üçün geniş meydan açıb, zəruri tədbirlər həyata keçirir. İnanırıq ki, 23 dekabr bələdiyyə seçkiləri günü də seçicilərimiz partiyanın irəli sürdüyü namizədələrə ellikliklə səs verəcəklər". Görüşdə çıxış edən seçicilərdən Rauf Abuşov, Samir Nuriyev, Xəyyam Məlikov, Mirəli Şıxəliyev və digərləri Prezident İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss etdiklərini, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşqu nümayiş etdirəcəklərini və xalqımızın rifahı, ölkəmizin inkişafı naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

Ardı Səh. 10

# "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Əvvəli Səh. 9

## DAŞKƏSƏN

23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Daşkəsən rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində dünən YAP Daşkəsən rayon təşkilatının seçi-









cilərlə keçirilən görüşündə YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri haqda danışıb, bələdiyyələrin tarixi və funksiyaları barədə tədbir iştirakçılarına geniş məlumat verib.

O, həmçinin, bələdiyyə seçkilərində partiya tərəfindən rayon bələdiyyələrinə irəli sürülmüş namizədlərin perspektivli, vətənə və dövlətə sədaqətli olduqlarını qeyd edib.

M.Yolçuyev YAP-ın, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də qələbə qazanacağına əmin olduğunu qeyd edib: "Ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını öz üzərlərində hiss edən abşeronlular, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də böyük fəallıq və coşğu nümayiş etdirəcək, bu siyasi kampaniyanın yüksək səviyyədə keçirilməsinə nail olacaqlar".

Görüşdə çıxış edənlər, ötən bələdiyyə seçkilərində olduğu kimi, bu seçkilərdə də qalib gəlmək və yerli özünüidarəetməni daha da inkişaf etdirmək olduğunu və bildiriblər. Ələdiyyə seçkilərində YAP tərəfindən irəli sürülən namizədlərə səs verəcəklərini bildirmişlər.

Sonda bir qrup gəncə YAP-ın üzvlük vəsiqəsi təqdim olunub.

## QUBA

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, Quba rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. YAP Quba rayon təşkilatının seçki qərargahı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq bu





kampaniya çərçivəsində rayonun Vladimirovka inzibati-ərazi dairəsi üzrə Ağbil kəndi və Aşağı-Atuc kəndində seçicilərlə görüş keçirilib.Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov, təbliğat qrupunun üzvləri - YAP Quba rayon təşkilatı aparatının rəhbəri Hüseyn Kərimov, YAP Quba rayon gənclər birliyinin sədri Əhməd Bəkirli iştirak edib.

Görüşü Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov açaraq bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb.

Görüşdə çıxış edən seçicilər YAP-ın müasir Azərbaycan dövlətinin qurulmasında, xalqın rifahının ildən-ilə yüksəlməsində və hərtərəfli inkişafımızda əvəzolunmaz xidmətlərindən danışıblar. Vurğulanıb ki, bütün seçki kampaniyalarında olduğu kimi, bələdiyyə seçkilərində də xalqımız YAP tərəfindən irəli sürülən namizədləri dəstəkləyəcək və YAP növbəti möhtəşəm uğurunu qazanacaqdır.

## AĞDAM

Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını davam etdirir.





Rayonun mədəniyyət işçiləri ilə keçirilən görüşdə YAP Ağdam rayon təşkilatı təbliğat qrupunun üzvü Şahin Qasımov və təşkilatın məsul işçisi Elməddin Abbasov, həmçinin, bələdiyyə üzvlüyünə namizədlər çıxış ediblər. Çıxışlarda bildirilib ki, YAP Ümummilli Lider Heydər Əliyev tərəfindən ölkə tarixinin mürəkkəb dövründə yaradılıb. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasəti nəticəsində, vətəndaşların sosial rifah halı daha da yaxşılaşıb və insanlar gələcəyə optimist baxırlar. Onlar da bildirilib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə keçirilən bütün seçkilərin qalibi olan Yeni Azərbaycan Partiyası dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də qələbə qazanmaq əzmindədir. Natiqlər ağdamlı seçiciləri dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## AĞDAŞ

Ağdaş rayonunda 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar seçicilərlə keçirilən növbəti görüşlər rayonun Aşağı Nemətabad və Qobuüstü kənd-





lərində keçirilib.

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvləri Anar Şahmuradov və Fuad Nəbiyev görüşlərdə, bələdiyyə seçkilərindən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıblar.

*Ardı Səh. 11*

# "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Əvvəli səh. 10

Qeyd ediblər ki, bələdiyyə seçkilərinə "Xalq üçün" devizi altında çox ciddi proqramla gedən Yeni Azərbaycan Partiyası və Partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, ölkəmizdə yerli özünüidarə orqanları olan bələdiyyələrin fəaliyyətinin genişlənməsi üçün münbit şərait yaranmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə gələcəyə hesablanmış əhatəli dövlət proqramlarının, genişmiqyaslı sosial və infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş, demokratik proseslərə güclü təkan vermiş və onun beynəlxalq aləmdə nüfuzunu gücləndirmişdir.

Görüşdə YAP tərəfindən irəli sürülən namizədlər çıxış edərək, onlara partiya tərəfindən göstərilən bu etimadı yüksək qiymətləndirərək, minnətdarlıqlarını bildiriblər, bu etimadı öz əməli işləri ilə doğruldacaqlarını, bələdiyyələrin xalqa daha yaxın olmalarına, sakinlərin istəklərinin nəzərə alınmasına, regionların müasirləşməsinə öz töhfələrini verməyə çalışacaqlarını bildiriblər.

Seçicilər adından çıxış edən Sənubər Məmmədova və Əli Əkbərov Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlərin həyata keçirilməsindən, mükəmməl qanunvericilik bazasının yaradılmasından, ölkəmizdə bələdiyyə institutunun tam formalaşmasından danışıbar. Qeyd ediblər ki, ağdaşlılar vətənsevər, dövlətə, Uu Öndər Heydər Əliyevin amallarına, ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyevin uğurla davam etdirdiyi siyasi xəttə sadiq insanlardır və bundan sonra da belə olacaqdır. Onlar, hər zaman olduğu kimi, bu seçkilərdə də Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlərə səs verəcəklər.

## GORANBOY

Yeni Azərbaycan Partiyası Goranboy rayon təşkilatının seçki qərargahının üzvləri 23 dekabr 2019-cu il bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Növbəti təbliğat-təşviqat kampaniyası rayonun Faxralı, Alpoyt və Quşçular kəndində keçirilib.





YAP Goranboy rayon təşkilatının aparat rəhbəri Əzra Həşimova kampaniya çərçivəsində keçirilən tədbirdə bələdiyyə seçkiləri ilə bağlı geniş məlumat verərək qeyd edib ki, müstəqilliyimizin ilk illərində bələdiyyələrin yaradılması Azərbaycan üçün ümdə məsələlərdən biri olub. "Müstəqil və ümumxalq səsverməsi nəticəsində, qəbul edilən ölkə konstitusiyasının tərkibində yerli özünüidarəetmə orqanı kimi çıxış edən bələdiyyələrə geniş yer verildi" deyə qeyd edən YAP Goranboy rayon təşkilatının aparat rəhbəri keçirilən bütün bələdiyyə seçkilərində YAP tərəfindən irəli sürülmüş namizədlərin uğurlu nəticələr əldə etdiyini xatırladıb: "Keçən dövr ərzində, bələdiyyələrə marağın artması, artıq əvvəlki seçkilərə nisbətən, 5-ci bələdiyyə seçkilərində namizədlərin çox olması ilə fərqlənir. Bələdiyyələr yerli bir bələdiyyə qurumu olaraq, artıq yerli əhali ilə və hakimiyyət arasındakı əlaqədə vacib bir faktora çevrilib".

9 nəfər Faxralı bələdiyyə namizədi adından cıxış edən Sevda Vəliyeva bələdiyyələrin, 5 il ərzində ərazidə gördükləri işdən danışaraq, qeyd edib ki, bələdiyyə üzvləri ilə birgə 11 km kəndarası yollar təmir olunub, küçələrə və 180 evə su çəkilib, imkansız ailələrə hər il maddi yardımlar edilib.

"11 nəfərdən ibarət Qadın İnkişaf Qrupu yaradılıb və fəaliyyət göstərir" deyən S.Vəliyeva kənddə İcma Mərkəzinin fəaliyyət göstərdiyini də bildirib.

Tədbirdə təbliğat qrupunun üzvü Şahin Allahverdiyev bələdiyyə seçkiləri ilə əlaqədar geniş məlumat verərək, 23 dekabrda seçki məntəqələrinə gələrək, YAP tərəfindən namizədlikləri irəli sürülmüş namizədlərə səs verməyə çağırıb.

Alpout kənd bələdiyyəsi adından Muraz Abdullayev və Novruz Bayramov çıxış edərək, onlara göztərilən diqqət və etimada görə öz minnətdarlıqlarını bildiriblər. Kənd ziyalısı Cavanşir İmamquluyev qeyd edib ki, bu seçkidə gənclərimizə geniş yer verilib. "Biz əminik ki, onlar göstərilən etimadı öz fəaliyyətləri ilə doğruldacaqlar. Biz bu seçkidə fəal iştirak edəcəyik" deyə çıxışçılar vurğulayıblar.

## BİNƏQƏDİ

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında bu ilin 23 dekabr tarixində ölkəmizdə keçiriləcək Bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirilib.





Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Azərbaycanda seçki tarixindən, seçki sisteminin formalaşdırılmasından danışıb. Hər bir vətəndaşın səsvermə hüququndan istifadə etməsinin vacibliyini bildirib. Seçiciləri qarşıdan gələn Bələdiyyə seçkilərində fəal iştirak etməyə, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb. R.Göyüşovun sözlərinə görə, ölkəmiz demokratik- hüquqi dövlət olaraq vətəndaşların inkişafı, azadlığı, öz iradəsinin təminatı istiqamətində daim islahatlar həyata keçirir. Seçmək- seçilmək hüququ da vətəndaşlarımıza verilən və konstitutsiya ilə müəyyən olunan müstəsna hüquqlardan biridir. Bu baxımdan, vətəndaşlarımız öz gələcək taleyinə biganə qalmamalı, seçkilərə qatılaraq, öz namizədini dəstəkləməlidirlər.

Görüşdə millət vəkili Kamaləddin Qafarov çıxışında ölkəmizdə bələdiyyələrin təsis olunması tarixindən, bu sahədə qanunvericiliyin formalaşdırılmasından danışıb. Bildirib ki, bələdiyyələr dövlətin və xalqın həyatında önəmli yer tutan bir qurumdur. Bu yüksək məsuliyyəti öz üzərinə götürən bələdiyyə üzvləri daim vətəndaşlarla ünsiyyətini sıxlaşdırmalı və onların rifahının yaxşılaşmasına çalışmalıdırlar. O, qarşıdan gələn seçkilərdə partiya tərəfindən irəli sürülən bütün namizədlərə uğurlar arzulayıb.

Görüşdə seçicilər qarşısında çıxış edən YAP tərəfindən Rəsulzadə Bələdiyyəsi üzrə namizədliyi irəli sürülmüş Hümbət Hüseynov, Leyli Tahirova, Nurlan Hacıyev, Nəzirə Rzazadə, Çinarə Ağayeva, Binəqədi qəsəbə Bələdiyyəsi üzrə namizədliyi irəli sürülmüş Niyaz Niftiyev, Rəşad İsayev, Afiq Qasımov bələdiyyənin inkişafı, seçicilərin maraqları naminə səylə çalışacaqlarını və onlara göstərilən etimadı doğruldacaqlarını söyləyiblər.

## NƏSİMİ

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında 23 dekabr tarixində keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun səhiyyə işçiləri ilə növbəti görüş keçirilib. YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı çıxış edərək bildirib ki, ölkəmizdə bütün sahələrdə, o cümlədən, səhiyyə sahəsində islahatlar davamlı şəkildə həyata keçirilir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Rayon təşkilatının sədri, mütərəqqi siyasətin nəticəsi kimi, ölkəmizin səhiyyə sahəsində çalışanların da partiyanın sıralarında çoxluq təşkil etdiyini vurğulayıb.






M.İbrahimqızı tədbirin sonunda Yeni Azərbaycan Partiyası tərəfindən Nəsimi rayon bələdiyyə üzvlüyünə irəli sürülmüş namizədlərlə tədbir iştirakçılarını tanış etdikdən sonra səhiyyə işçilərini qarşıdan gələn bələdiyyə seçkilərində fəal olmağa və YAP tərəfindən irəli sürülmüş namizədlərə səs verməyə çağırıb. Tədbirdə rayon seçiciləri çıxış edərək qeyd ediblər ki, Yeni Azərbaycan Partiyası tərəqqi və inkişafdan bəhrələnərək sıralarını sağlam düşüncəli, aydın fikirli vətəndaşlarla artıraraq, daha da qüdrətlənir. Sevindirici hal isə ondan ibarətdir ki, eyni əqidəli insanlar, məhz ölkəmizdə lider partiya olan Yeni Azərbaycan Partiyasının və təbii ki, bu partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşiblər. Zaman özü sübut etdi ki, YAP xalqın Ona olan ümidlərini doğruldub və Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edib. Məhz bu prinsipləri əldə rəhbər tutan seçicilər də, 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində öz səslərini yenidən sabitliyə, tərəqqiyə, inkişafa və sosial rifaha səs verəcəklərini bildiriblər.

Tədbirdə gənclərə bir sıra təbliğat materialları paylanılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***
***ZÜMRÜD BAYRAMOVA***
***RÖVŞƏN RƏSULOV***
***RƏFİQƏ KAMALQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

17 dekabr 2019-cu il

# Aslan İsmayılovun ağzı deputatlığa sulanır

***İnsanı hansı sosial, mənəvi, etnik, dini qrupa mənsubiyyətini onun tutduğu mövqe müəyyənləşdirər. Məhəmməd peyğəmbərin bu barədə gözəl bir hədisi var: "Hər kəs kiminlə bərabərdirsə, ondandır".***



Zaman-zaman erməni yarlığı ilə gəzən və başdan-ayağa saxtakar olduğu halda həftə səkkiz, mən doqquz, başlayıb yenə də dövlətə və xalqa böhtan yağdıran, bu gün isə "deputat olmaq" arzusu ilə yaşayan Aslan İsmayılov ömrü boyu erməniyə işləyib, onlarla bir yerdə olub. Özü də təkcə bu gün yox, 1988-ci ildə, məşhur Sumqayıt hadisəsində A.İsmayılov ermənilərin yanında dayanıb, Azərbaycan övladları barədə hökm çıxarırdı. Elə bu faktın özü, peyğəmbərin təbirincə desək, Aslan İsmayılovun əsl kimliyindən xəbər verir. O, ən azı, mənəviyyat baxımından, erməni xislətlidir. Erməniləri müdafiə edəedə, onların yanında dayana-dayana A.İsmayılovda, həqiqətən də, bu millətin xarakterik özəllikləri ortaya çıxıb. Bu adam da eynilə "müvəkkili" olduğu ermənilər kimi özü üzərində yazıqlıq, haqsızlığa məruz qalmışlıq imici yarada-yarada, siyasi və maddi dividend toplayır, mal-dövlət yığır.

## İsmayılov deputat olmaqla, növbəti "məzlumluğunu" göstərməyə çalışır

Həqiqətən də, addımbaşı haqq-ədalətdən dəm vuran, indi də deputat olmağa ağzı sulanan A.İsmayılov, görünür, növbəti "məzlumluğunu" göstərməyə çalışır. Cəmiyyətdə, bəzən elə hal və situasiyalarla rastlaşırıq ki, təəccüb etməyə bilmirsən. Necə ki, demokratiya, sivil siyasi mübarizə yolundan dəm vuran erməni "vəkili" A.İsmayılov hakimiyyətə gəlməyin əsas yolu sayılan seçkilərdən bəhs etməklə, "xal" qazanmaq istəyir. Bu, o A.İsmayılovdur ki, uzun illər boyu özünü sosial şəbəkənin qəhrəmanı kimi göstərərək, yeganə məqsəd-məramı qarşısına qoyduğu tələbləri gerçəkləşdirsin: ölkədə qanunların aliliyini şübhə altına alsın, cəmiyyət arasında çaşqınlıq yaratsın. Azərbaycanda həyata keçirilən müsbət islahatlar, görülən işlərin hamısına qara yaxmaq onun ehtikar marağı dairəsindədir. A.İsmayılov, bu azmış kimi, öz sahəsini-hüququ, ədaləti də tapdalayır, qeyri-qanuni hərəkətləri ilə cəmiyyət arasında qarşıdurma yaratmağa, istənilən xırda belə qüsurun videoçəkilişini həyata keçirərək onu ölkə, hətta qlobal əhəmiyyətli bir problem kimi qələmə verməklə, ölkəmiz barədə mənfi rəy formalaşdırmağa çalışır. Ümumiyyətlə, başıpozuqluq, şərləmə, qara yaxma cinayətkar "vəkil" İsmayılovun qanında olduğundan, əslində, onun bu hərəkətlərindən təəccüblənmək də yersizdir.

Göründüyü kimi, "su çanağı suda sınar" misalına uyğun olaraq, A.İsmayılovun qanunlara, hüquqa zidd əməlləri də elə hüquqi çərçivədə öz həllini tapıb. Yəqin ki, cinayətkar "vəkil" elə zənn edir ki, "deputat olmaqla" ürəyində qalan "arzularını" "həyata keçirə biləcək". Ancaq yanılırsan, A.İsmayılov. Deputat xalq tərəfindən seçilirsə, xalqla bir olmalı və dərdinə şərik olmalıdır. A.İsmayılov, sənin buna iddiada olmağa haqqın çatırmı?

## Sən kimsən və nə istəyirsən, A.İsmayılov?

Xatircəm olun və A.İsmayılovun ağlayıb-sızlamağa, bu özünübilməzin əlinə "ədalət" bayrağı alıb, boğuq səslə qulaqlarımızı cingildətməyinə baxmayın. Bu adam bilir ki, xirtdəyə qədər zibilin içindədir və bu vaxta kimi gizlətdiyi cinayətlərə görə, gec-tez məsuliyyətə cəlb olunacaq. "Emre Piliç" layihəsi, torpaq biznesi, "hədiyyə" edilən ofisin sonrakı dava-dalaşı, dəyəri yüz minlərlə ölçülən mal-mülklərin ələ keçirilməsi həqiqətənmi bir başısovuqun olmayan "təmiz" əlləri ilə pak-pakizə həyata keçirilib? Obyektlərə qoyulan "hüquqi tas" nəcəl!? Bu kəm (yarı, yarımçıq) sər (ağıl) sahibinin fırıldaqları haqqında o qədər incə detallar bizlərə bəllidir ki... Ermənniləşən xəyanətkar "vəkil" A.İsmayılovun başı mütləq görünməli idi. Necə deyərlər, kəklik qaçıb gizlənəndə, başını kolun dibinə soxur, quyruğu isə çöldə qalır, bundan xəbəri olmur. A.İsmayılovun bütün çıxışlarında həyasızcasına elə zənn edir ki, "aslan"dır, amma anlamır ki, heç həşərat da deyil. Zaman-zaman erməni yarlığı ilə gəzən və başdan-ayağa saxtakar olduğu halda, həftə səkkiz - mən doqquz, başlayıb indi də "deputat" arzusu ilə sosial şəbəkələrdə çıxışlar etməyə. Abırsız və əxlaqsızlığın son dərəcəsi buna deyirlər. Ancaq o qədər abırsızsan ki, tüpürdüyündən, nəinki doyursan, həm də elə yalayırsan ki... Adamdan soruşarlar ki, əgər həqiqətən, hökumətdən heç bir təmənnan yox idisə, mandat istəmirdinsə, o zaman nəyə görə Cənab Prezidentimiz İlham Əliyevin qəbuluna getmişdin? Yaxşı, getdin və qəbulda oldun. Sənə öz tərzinlə desək, "şərt qoydular", sən də tutaq ki, özün demiş, "qəbul etmədin". Bəs bilə-bilə ki, şərtləri qəbul etməmisən və sən seçilməyəcəksən, o zaman niyə namizədliyini irəli sürürdün? Maraqlısı odur ki, hər yerdə də deyirdin ki, qəbulda olmuşam, mən seçilmişəm. Əslində isə, belə anlaşılır ki, sən gedib demisən ki, mən deputat olmaq istəyirəm, orda da sənə deyiblər ki, seçilmək üçün namizədliyini ver, seçicilərin etimadını qazan, seçkini ud, deputat seçil. Sən də namizədliyini verib, qaçdın Amerikaya şad xəbər verməyə ki, "dobro" almışam, təbliğat üçün pul verin. Bax, sən busan! Murdarlığın, idbarlığın kubusan, Aslan İsmayılov!

## <u>Hafiz Hacıyev:</u> "Bütün əməllərinə görə cavab verməli olacaq"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev A.İsmayılovun, bütünlükdə, cinayətkar olduğunu deyərək bildirib ki, vətəninə, dövlətinə xəyanət edib, bu gün "deputat olmaq" arzusuna düşmək alçaqlıq və əxlaqsızlıqdır: "Bu adam özü xəyanət içində batır. Belə əxlaqsız və cinayətkar məhkəmə ilə bizi qorxuza, həqiqəti deməkdən çəkindirə bilməz. Belə cinayətkarın və ermənilərin bir nömrəli havadarının xalqın "elçisi" olmağa haqqı yoxdur".

*Rəfiqə HÜSEYNOVA*

# Radikalların "tısı-pısı" niyə yatıb?

## *Yaxud siyasi nokdaundan siyasi nokauta doğru*

***Ölkədə reallaşdırılan əsaslı və çoxşaxəli islahatlar paketi artıq öz sözünü deməkdədir. Burada əsas məqsədin xalqın maraqlarına cavab verməsi faktoru, sözün həqiqi mənasında, inqilabi addımların təzahürü olaraq qiymətləndirilir.***



Daha dəqiq desək, Azərbaycanda baş verən bu dəyişikliklər beynəlxalq aləm üçün də siyasi təkamülün ən bariz sübutu kimi təqdim edilə bilər. Çünki bu islahatlar, eyni zamanda, dövlətimizin möhkəm dayaqlara əsaslanan gücünün aşkar göstəricisidir. Uzun müddət ölkəmizdə qeyri-sabitlik və s. bu kimi çağırışlarla arzularına çata bilməyən dağıdıcı müxalifətin isə, sözün həqiqi mənasında, "tısı-pısı" yatıb. Necə deyərlər, sanki qurbağa gölünə daş atılıb. Halbuki istər icazəli, istərsə də icazəsiz aksiyalarında köhnə şüarları ilə sağlam cəmiyyətin baş-beynini aparan "revolyusioner" "liderlər", demək olar ki, əl-qollarını sallayıb, baş verən siyasi evolyusiya cərəyanının dinamikliyini seyr etməkdədirlər.

## Dağıdıcı müxalifətin əsas çoxluğu seçkilərə qatılaraq, ölkədə gedən ictimai-siyasi proseslərdə iştirak etmək ab-havasındadırlar

Kadr islahatları ilə yanaşı, struktur islahatlarının da gerçəkləşdirilməsi, xüsusilə, Milli Məclisin növbədənkənar seçkilərə getməsi qərarının verilməsi, sözü bitmiş "liderlərin" Müsavat partiyasının qərargahında toplaşaraq, "erkən seçkilərə gedək, ya da getməyək" sualını müzakirə etmələri ilə nəticəsini tapdı. Həqiqət naminə deyə bilərik ki, dağıdıcı müxalifətin əsas çoxluğu seçkilərə qatılaraq, ölkədə gedən ictimai-siyasi proseslərdə iştirak etmək ab-havasındadırlar. Hətta Müsavat partiyası ilə yanaşı, AXP, "REAL" və s. digər siyasi müxalifət təşkilatları da seçkilərə qatılacaqlarını gizlətmirlər. Yeganə hay-küy salan tərəf isə, "Milli Şura"-AXCP cütlüyüdür (oradakı digər "cırtdan" partiyalar Ə.Kərimlinin təsiri altındadırlar - R.N.) ki, bu cinah düşərgə daxilində belə azlıqda qalaraq, bir dalana dirənib. O cümlədən, eks-səhiyyə naziri Əli İnsanovun bu gün də Qərb dairələrinin əli altında özünü çox rahat hiss elədiyi göz önündədir və onun bu addımı heç də ənənəvi düşərgə tərəfindən dəstək almır.

## Əli Kərimlinin cinahında ciddi apokalipsis yaşanacaq

Bütün bunlar öz yerində, amma erkən parlament seçkilərinin boykot edilməsi məsələsinə gəlincə, belə məlumatlar da daxil olmaqdadır ki, artıq "Milli Şura"-AXCP cütlüyünün daxilində də etirazçılar yaranıb və onlar növbədənkənar parlament seçkilərinə getməyin tərəfdarlarıdırlar. Çox yəqin ki, parçalanan və məhv olan bir qurumun rəhbərliyində olan Ə.Kərimli cəbhəçi etirazçıların tələblərinə uymaq məcburiyyətində qalacaq. Hətta bu gün, Gültəkin Hacıbəyli "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü olaraq, Ə.Kərimliyə qarşı yaranan qruplaşmada yer alır və seçkilərə qatılmağın tərəfdarı olduğunu gizlətmir. O cümlədən, Fuad Qəhrəmanlı və s. digər cəbhəçilər də var ki, onlar hazırkı dövrə qədər Ə.Kərimliyə görə həbsə düşdüklərini önə sürərək, AXCP sədrinin boykot qərarına getməməsini tələb olaraq irəli sürməkdədirlər. Yox, əgər Ə.Kərimli öz dediyindən dönməzsə və boykot qərarını verəcəksə, bax, onda radikal düşərgədə vəziyyət öz oxu ətrafından çıxaraq, bütövlükdə, o cinaha ciddi apokalipsis yaşadacaq.

## Onların bir yolları var - ya dövlətçiliyə, ümummilli maraqlara xidmət etmək qərarını verib, bu proseslərə qoşulmaq, ya da...

Fakt və sübut budur ki, düşərgə ölkədə gedən sürətli və qarşısıalınmaz tərəqqidən boks idmanının termini ilə desək, siyasi nokdaun zərbəsini dadıb, indi isə siyasi nokauta doğru sürünməkdədir. Demək istədiyim isə budur ki, radikallar daim dövlətçilik və xalq maraqlarına qarşı çıxmaları ilə, hətta seçkilərə qatılmaq qərarını versələr belə, onlar acı məğlubiyyət sindromundan çıxa bilməyəcəklər. Hətta bu sindromu qırmaq imkanı onlarda yoxdur. Çünki xalq ölkədə gedən çoxşaxəli islahatları görür, dərk edir və alqışlayır. Yəni iqtidarın apardığı bu yenilənmə siyasəti müxalifətdə, ümumiyyətlə, yoxdur. Köhnəlmiş sifətlər, köhnəlmiş şüarlar və köhnəlmiş baxışlar isə, nəinki cəmiyyətə, heç onların azsaylı elektoratlarına da lazım deyil. Artıq tarixin zibil urnalarına atılanların da sonu, bax, bu islahatlar, daha dəqiq desək, siyasi təkamül, evalyusiya yolu ilə çatır. Onların bir yolları var - ya dövlətçiliyə, ümummilli maraqlara xidmət etmək qərarını verib, bu proseslərə qoşulmaq, keçmişlərindən imtina etmək, ya da...

*Rövşən NURƏDDİNOĞLU*

# Paytaxt sakininə qarşı quldurluq edilib



Nərimanov Rayon Polis İdarəsinin 17-ci polis şöbəsinə müraciət edən Bakı şəhər sakini E.Rzayev dekabrın 15-də saat 2 radələrində iki nəfərin onu döyərək pulunu və mobil telefonunu aldığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Ş.Məmmədli keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində polis əməkdaşları tərəfindən saxlanılıb, digərinin şəxsiyyəti müəyyən edilib. Onların həmin gün saat 4 radələrində Səbail rayonunun Xəqani küçəsindəki bağda paytaxt sakini Ə.Nağıyevin qoluna bıçaqla xəsarət yetirib 83 manatını almaları da müəyyən edilib. Faktla bağlı Nərimanov Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Gələn il Rusiyada daha çox hansı peşəyə ehtiyac duyulacaq?




Rusiyada gələn il daha çox ehtiyac duyulacaq peşələrin adları açıqlanıb. "Rabota.ru" saytının məlumatında deyilir ki, 2020-ci ildə Rusiyada sürücü, ofisiant, kuryer və satıcılara, eləcə də reklam üzrə mütəxəssislərə, proqramçılara, yüksəkixtisaslı mühəndis-texnoloqlara daha çox ehtiyac duyulacaq. Portalın ekspertlərinin hesablamalarına görə, növbəti ildə Rusiyada, həmçinin aşpaz, avtokran sürücüsü, inşaat sahəsində ustalar üçün çox sayda vakansiya olacaq.

# “Söyüş müxalifəti” məqsədinə çatmadı

*Müxalifətçi bloger Elvin İsayev Azərbaycana deportasiya edildi*

**Azərbaycan vətəndaşı, 1980-ci il təvəllüdlü İsayev Elvin İltixam oğlu Ukraynada miqrasiya qanunvericiliyinin tələblərinin pozulmasına görə, 12 dekabr 2019-cu il tarixdə qayıdış şəhadətnaməsi əsasında Azərbaycana deportasiya edilib. Bu, nə birinci haldır, nə də sonuncu.**

Nə qədər ki, “siyasi mühacir” adı ilə Avropa ölkələrində sülənən və adını azərbaycanlı qoyub, Azərbaycan dövlətinə və xalqına qarşı təhqiramiz sözlər, böhtanlar yağdırırlarsa, onların sonu belə olmalıdır. Ötən il Türkiyədə saxlanılaraq, aprelin 22-də Azərbaycana ekstradisiya edilən sabiq deputat, “Quska” ləqəbli biznesmen Hüseyn Abdullayevin həbsindən sonra Avropadakı “söyüş müxalifəti” susdu. Sanki “qurbağanın gölünə daş atıldı”. “Söyüş müxalifəti”nin susqunluğu, daha çox iz azdırmaqla əlaqələndirilir. Belə ki, Avropadakı müxalifətin “Quska” tərəfindən maliyyələşdirildiyi barədə çoxsaylı iddialar üzə çıxdı. Azərbaycan daxilindəki müxalifətin bəzi qüvvələrinin də H.Abdullayevdən maliyyə dəstəyi aldıqları barədə faktlar üzə çıxdı.

Söyüş söyməklə internetdə “fəallıqları” ilə seçilən, siyasi bilikləri çox aşağı səviyyədə olanlar Azərbaycanda siyasətə söyüş və təhqirin AXCP sədri Ə.Kərimli tərəfindən gətirilənlərdir. Ə.Kərimlinin trollarına rəhbərliyi Natiq Ədilov, Gözəl Bayramlı və ya digərləri edirdi. Bütün bunlar faktdır. Söyüş söymək yolunu da buna görə seçdilər. Düşündülər ki, milyonlarla insan olduğu məkanda, bu cür yollarla Azərbaycanda istədiklərini həyata keçirə biləcəklər. Ancaq unutdular ki, cəmiyyətimiz küçə uşaqlarının təhqirinə heç zaman dəstək verməz.

## “Söyüş müxalifəti”, yoxsa siyasi terrorçular?

Bəli, bu adamlar, əsl həqiqətdə də, terrorçudurlar. Mahiyyətcə terrorçudurlar. Onların xislətləri terrorizmə indekslənib. Bütün başqa terrorçular kimi, bunlar da eyni əlamətlərə və eyni göstəricilərə malikdir. Terrorçuların iki başı, dörd gözü, səkkiz qulağı olmur ki. İndiyə qədər gəlmiş-getmiş bütün terrorçular kimi bizim bu dırnaqarası “azərbaycanlı” terrorçuların çağırışları da eynilə təhdid, qanuni hakimiyyətə qarşı silahlı müqavimət, kütləvi itaətsizlik və qətllərə çağırış üzərində qurulub. Onlar ölkəmizə və hakimiyyətimizə qarşı durmadan aqressiya, kin, söyüş, nifrət püskürürlər.

Bu ünsürlərə, bu ictimai-siyasi tör-töküntülərə heç bir halda, müxalifət demək olmaz. Heç “söyüş müxalifəti” demək də düz deyil. Çünki normalda əsl müxalifət və sivil müxalifət belə olmur. Yeganə silahı, şüarı, ideologiyası söyüşdən ibarət olan bir qüvvəni müxalifət adlandırmaq, məncə də, onları ciddiyə almaq və şərəfləndirmək demək olardı. Bu adamların bir adı var: terrorçular. Onlar hal-hazırda siyasi terrorçuluqla məşğuldurlar. Onu da qeyd edək ki, belə tör-töküntülər Azərbaycan üçün hər hansı bir şəkildə təhlükə sayıla bilməz. Necə deyərlər, milçəyin ürək bulandırması məsələsində olduğu kimi, bu adamlar da Azərbaycanın imicini zədələməklə məşğuldur. Və nəticəsi də belə olmalıdır.



Siyasi mübarizə adı altında qeyri-sivil yollarla, yəni qisasçılıq siyasəti aparmaqla yanaşı, həm də bir-birləri ilə qrant davasına çıxan orduxanlar, turallar, məhəmmədlər, rəfaillər, vidadilər və s. bütün mənalarda dövlət, xalq, millət, əxlaq, şərəf, ləyaqət, mənəviyyat kimi meyarlardan qat-qat uzaqdadırlar. Biz, dəfələrlə müşahidə etmişik ki, müxtəlif hadisələrdən dərhal öz məqsədləri üçün yararlanmağa cəhd edən bu tiplər yığnağı açıq-aşkar dövlətə, dövlət rəsmilərinə və onların ailələrinə qarşı terror çağırışları etməyə başlayırlar. Bəlkə də bir çoxları bunu eyforiyaya qapıla hissi ilə əlaqələndirə bilərlər, amma bu, heç də belə deyil. Bu, sadəcə, terrorçuluğa çağırışlardır!

## Belə xainlər barədə ciddi ölçülər götürülsün!

AXCP sədri Əli Kərimli siyasi karyerası boyunca fərarilik, satqınlıq, qorxaqlıq və xəyanət kimi “ilk”lərə imza atan müxalifət funksionerlərindən biridir. Ümumiyyətlə, Əli Kərimlinin elə bir statusu və canlı yayım videosu yoxdur ki, “şərh” bölümündə hakimiyyət tərəfdarlarının ünvanına ifrat təhqiramiz ifadələr işlədilməsin. Axı Əli Kərimli necə təhqirin əleyhinədir ki, onun haqqında etik çərçivədə tənqid yazanların rəyləri həmin andaca silinir və bloklanır, amma həmin şəxslərin ünvanına yazılan təhqir və söyüşlərə toxunulmur, silinmir, bloklanmır? Deməli, təhqiri və söyüşü təşkil edən elə Ə.Kərimlinin özüdür. Onun tapşırığı olmadan cəbhəçilər arasında quş uçurdulmursa, demək, onun razılığı olmadan yazdığı statuslarin və çıxışlarının “şərh bölümündə” təhqirlər də yer ala bilməz. Buradan aydın olur ki, cəbhəçi trolların təhqir və söyüş kampaniyası, birbaşa Ə.Kərimlinin gizli göstərişlərinə uyğun olaraq təşkil edilir.

## Fazil Mustafa: “Elvin İsayev kimilər bilməlidirlər ki, hər bir vətəndaşı təhqir etməyin cəzası böyük olur və o da cəzasını almalıdır”

Deputat Fazil Mustafa, sözügedən məsələ ilə bağlı bildirib ki, Elvin İsayev məhkəmə qarşısına çıxarılacaq: “Miqrasiya Məcəlləsinin tələblərini pozduğuna görə, deportasiya edilib və buna görə də məsuliyyət daşıyacaq. Ancaq yayılan məlumata görə, o, cinayət məsuliyyətinə cəlb edilib. Söyüş söymək təhqir kateqoriyasına daxildir. Yəqin ki, buna görə də, məsuliyyət daşıya bilər. Çünki hər bir vətəndaşı təhqir etməyin cəzası böyük olur və o da cəzasını almalıdır.”

## Novella Cəfəroğlu: “Söyüş söyən heç bir şəxsi müdafiə etmək fikrində deyiləm...”

Hüquq müdafiəçisi Novella Cəfəroğlu Elvin İsayevi müdafiə etmək fikrində olmadığını deyib: “Söyüş söyən heç bir şəxsi müdafiə etmək fikrində deyiləm. Sən bir şeyi bəyənmirsənsə, onu tənqid edə bilərsən. Eləcə də, hakimiyyəti bəyənmirsənsə, konkret faktlar göstərməklə, tənqid et. Bildir ki, filankəs korrupsionerdi, korrupsiya ilə evlər alıb və sairə. Bunu tənqid edə bilərsən. Təhqir isə yolverilməzdir. Özümə söz vermişəm ki, kimliyindən asılı olaraq təhqirə yol verən, söyüş söyən şəxsin hüquqlarını müdafiə etməyəcəyəm. Ona görə də, əgər Elvin İsayev söyüş söyübsə və buna görə cəza alacaqsa, onun hüquqlarını müdafiə etmək fikrində deyiləm”.

N.Cəfəroğlu, onu da deyib ki, belələri unutmamalıdırlar ki, özlərinə rəva görmədikləri söyüşləri başqalarına qarşı tətbiq edirlərsə, bunun hüquqi tərəfləri də var: “Belə ki, bütün sivil ölkələrdə olduğu kimi, Azərbaycan da dünyada beynəlxalq Konvensiyalara və hüquqi prinsiplərə daim əməl edən dövlət kimi tanınır. Hər bir Azərbaycan vətəndaşı vəzifəsindən, sosial təbəqəsindən asılı olmayaraq, qanun qarşısında bərabərdir və hər bir şəxs etdiyi əmələ görə qanun qarşısında məsuliyyət daşıyır. Bəli, bu gün xarici ölkələrdə, necə deyərlər, “şirə, pələngə” dönən söyüş dağarcıqları da var ki, onlar onsuz da, Azərbaycanın dövlətçilik maraqlarına qarşı düşmənçilik mövqeyi nümayiş etdirirlər və düşünürlər ki, “siyasi sığınacaq” aldıqları hər hansı Avropa ölkəsində oturub, sosial şəbəkələr vasitəsi ilə dövlətinin mövqeyini qoruyanları çirkin söyüş hədəflərinə tuturlarsa, onların bu əməlləri cavabsız qalacaq. Beləliklə, “sosial şəbəkə müxalifəti”nin yaratdığı gərginliyin ömrü elə sosial şəbəkədə canlı yayımın ömrü qədərdir və bundan o tərəfə keçə bilmir.

**Rəfiqə HÜSEYNOVA**

# Müxalifət öz-özünü “boykot” edir

***Növbədənkənar parlament seçkilərində əksər siyasi partiyaların iştirak edəcəkləri barədə bəyanatlar və partiyaların açıqlamaları eşidilir, amma yenə də “Milli Şura” - AXCP bu prosesdən kənarda qalmağa və “boykot”a çağıran fikirlər səsləndirməyə başlayıblar. Söhbət etdiyimiz müsahiblərimizin, birmənalı mövqeləri ondan ibarət oldu ki, Əli Kərimli, Cəmil Həsənli və bu kimi şəxslər yenə də xarici maraqlı dairələrin sifarişi və göstərişi ilə hərəkət edir və onların tapşırıqlarını yerinə yetirirlər.***

## Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: “Müxalifətin seçkilərdə uğur qazanması mümkün deyil”



- Parlament seçkiləri ilə bağlı “Milli Şura” və AXCP-nin “boykot”a çağırış etməsi yanlış bir yoldur. Ümumiyyətlə, adları çəkilən bu qüvvələr ölkədə hansısa bir seçki keçirilən kimi, başlayırlar anormal mövqe sərgiləməyə. Yaxşı olardı ki, sözügedən dağıdıcı müxalif qüvvələr bu cür anormal hərəkətlərə yol verməsinlər. Demək olar ki, ölkədə bu günə qədər keçirilən bütün seçkiləri uduza-uduza gəliblər. Onların seçkilərdə uğursuzluğa düçar olmalarının başlıca səbəbi xalq tərəfindən dəstəklənməmələrilə bağlıdır. Bir sözlə, bu gün adları çəkilən bu qüvvələrin xalq və cəmiyyət tərəfindən heç bir dəstəyi yoxdur. Belə olan halda da, müxalifətin ölkədə keçirilən hansısa seçkilərdə uğur qazanması mümkün deyil.

## “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov: “Müxaliflər özləri-özlərini aldatmaqla məşğul olurlar”



- Müxalifət düşərgəsini təmsil edən bu şəxslər hələ də “boykot”la seçkidə iştirak etməməyin fərqini anlaya bilmirlər. Seçkidə iştirak etməmək hər bir siyasi təşkilatın müstəqil hüququdur. Amma adları çəkilən bu şəxslər uzun illərdir ölkədə keçirilən bütün seçkilərə qatılıblar, amma hər dəfə də uğursuzluğa düçar olublar. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Bu baxımdan da, sözügedən şəxslər çox gözəl bilirlər ki, onlar bu seçkilərə qatılsalar da, heç nə əldə edə bilməyəcəklər. Bir sözlə, bütün seçkilərdə olduğu kimi, bu seçkilərdə də onların qalib olmaq şansları sıfıra bərabərdir. Müxalifət hər zaman yersiz hərəkətlərə əl ataraq, xaricdən özlərinə dəstək axtarmaqla məşğul olub. Çünki həmin o müxalifət təmsilçiləri çox gözəl bilirlər ki, onlara xalqımızın və cəmiyyətimizin heç bir siyasi dəstəyi yoxdur. Yaxşı olardı ki, müxalifət bu gün boş-boş hərəkətlərlə məşğul olmaqdan əl çəksin. Çünki müxaliflər özləri-özlərini aldatmaqla məşğul olurlar. Müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa, onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Yeni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və bu uğursuzluqdan çıxmaları da mümkünsüzdür.

**GÜLYANƏ**

## Azyaşlını vurub hadisə yerindən qaçan sürücü tutulub

Dekabrın 13-də Bakı şəhər sakini 5 yaşlı Ləmanın Xətai rayonunun Məhəmməd Hadi küçəsində naməlum avtomobillə vurulması və uşağın ayaq nahiyəsindən xəsarət alması barədə 34-cü polis şöbəsinə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Hadisənin “Mitsubishi” markalı avtomobillə törədilməsi müəyyən edilib. Yol-nəqliyyat hadisəsini törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən həmin nəqliyyat vasitəsinin sürücüsü, Bakı şəhər sakini İ.Abidi Xətai Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

## Bu həftə Moskvada havanın temperaturu 140 ilin rekordunu vuracaq

Moskvada havanın temperaturunun rekord dərəcəyə qalxacağı gözlənilir. Moskva Meteoroloji Bürosunun məlumatına görə, bu həftənin ortalarında Rusiya paytaxtında müsbət 5 dərəcə isti olacaq. Bu, 140 il ərzində ən yüksək göstəricidir. İsti hava bütün həftə davam edəcək. Meteoroloqların rəyinə görə, Moskvada hazırkı hava şəraiti oktyabr ayına uyğundur.

TƏRS BAXIŞ

# Mehman kimi kloundan bələdiyyə sədri olarsa...

***Daxilindəki "müxalifətçilik" adı altında, sözün əsl mənasında, həyasızlıq sərgiləyən fərdlər kifayət qədərdir düşərgədə. Elə götürək Ə.Kərimlini. Həmin Əli Kərimlini ki, bir müddət əvvəl, icazəsiz aksiya keçirib, həyasızlığın ən pik nümayişini etdirdi Bakı küçələrində. Yəni belə bir üzücü reallıq, düşərgə daxilinə o qədər çox sirayət edib ki, müxalifəti həyasızlıqdan, həyasızlığı isə müxalifətçilikdən, ümumiyyətlə, seçmək olmur, sanki hər ikisi bir-birini, necə deyərlər, tamamlayır.***





Bu baxımdan, ötən həftə özünü bloqer adlandıraraq, təhsil müəssisələrinin birində ucuz şou-tamaşa göstərən Mehman Hüseynovun haray-şivənçiliyini göstərmək yerinə düşərdi. Mövzunun tam mahiyyətinə keçməmişdən əvvəl, həmin bu Mehmanın əvvəllər də sərgilədiyi "sirkaçlığı"nı, klounluğunu, yaxud da polyaçiliyini xatırlatmağa dəyər. Yeri gəlmişkən, həbsdə olarkən, saxlanıldığı həbsxanada belə, özünü "lezvalayıb", "aclıq aksiyası" keçirdiyini, penitensiar xidmətinin əməkdaşına qarşı bəlli hərəkətlərini "döyülmək" adı altında ictimai rəyə sızdıran həmin bu Mehman həbsdən azadlığa çıxandan sonra, onu ilk qarşılayanlardan biri və birincisi də, məhz AXCP sədri Ə.Kərimli olmuşdu. Atalar demişkən, taylı-tayını tapıbmış...

Beləliklə, həmin bu həyasız bloqer qarşıdan gələn bələdiyyə seçkilərinə qatılacağını və namizəd kimi qeydiyyatdan keçdiyini əlində əsas tutaraq, gedib seçki məntəqəsi kimi müəyyən olunmuş ümumtəhsil məktəblərinin birinə və orada quraşdırılmış stenddə özünün təbliğat şəklini yapışdırıb. Əlbəttə, bu, onun namizəd olaraq haqqıdır, lakin...

## Bəs həyasız bloqer nə edir?

Məsələ ondadır ki, kimsəyə demədən, ən azından, məntəqə qarşısında "namizəd kimi şəklimi stendə yapışdıracam" məlumatını vermədən, yəni qəsdən aranı qarışdırmaq məqsədi ilə hərəkətə keçən Mehmana məktəbin direktoru yaxınlaşır və ən azından, etika xətrinə xəbərdar edilməli olduqlarını söyləyir. Bəs həyasız bloqer nə edir? Nə edəcək, əlbəttə ki, həyasızlıq! Az qala şalvarını dartıb başına keçirən, pulunu almamış fahişələr tək, özünü yerdən-yerə vurmaqla boğazını karanla deşən, "kişi" ləçərliyi edən Mehman öz haqqını tələb edərkən, unudub ki, onun bu "sirkaçlığı"nı və klounluğunu məktəbdə təhsil alan şagirdlər də görürlər. Özü də, Mehmana deyilir ki, imtahan prosesidir, səs-küy salmasın və s. Hətta məktəbin direktoru da bildirir ki, Mehmanın bələdiyyə seçkilərinə namizədliyindən bixəbərdir və o, təqdim edilən sənədi gördükdən sonra, sadəcə, çəkilir kənara və həyasız bloqerə deyir ki, getsin şəklini yapışdırsın, məktəb daxilində səs-küy salmasın. Bu da öz yerində...

## Sənan Nəcəfov yazır ki, "gücünü" müəllimə göstərən "qəhrəmandı, qəhrəman!"

Bu arada, həmin hadisə ilə bağlı sosial şəbəkədə maraqlı statusla qarşılaşdım. Jurnalist və "qhtxeber.az" saytının baş redaktoru Sənan Nəcəfov Mehman Hüseynovun özünə "müəllim" dedirtmək cəhdini bir neçə kəlmə ilə faş edib. "Xəbərimiz yoxmuş ki, blogger Mehman- müəllim imiş... Görəsən, hansı təhsil ocağında dərs deyir, bilmirəm, amma onu bilirəm ki, hərəkətlərindən ziyalılıq yox, şoumenlik yağır! İnsafən, elə ona şoumenlik də qəşəng yaraşar, nəinki müəllimlik..." yazan Sənan Nəcəfov əlavə edib ki, özünün namizəd olduğunu məktəb direktora bildirmədən şou düzəldir bu "müəllim". SİTAT: "Və məktəb direktorunu, utanıb-çəkinmədən təhqir edərək "dələduz" və "quldur" adlandırır.

Zorla məktəbə daxil olaraq səsini həyasızcasına başına atması isə çox səviyyəsiz və ürəkbulandıran hərəkətdi, təəssüf edirəm. Müxalifətçi olursan ol, amma belə olma, a Mehman..."

"Məşhur filmdə deyildiyi kimi, "beləsinə nə ad verəsən" ?! Deputatımız bumu olacaq?! "Gücünü" müəllimə göstərən "qəhrəmandı, qəhrəman"!

## Ümid edək ki, onun iştirak edəcəyi bələdiyyə dairəsində...

Dağıl, a dünya, dağıl..." ifadəsini də yazan baş redaktor həmkarlarını həmin məktəbin direktoru Elnur müəllimi dəstəkləməyə çağırıb və həqiqətən də, doğru çağırış edib: "Mən kolleqalarımı Elnur müəllimi müdafiə etməyə çağırıram! Buna biganə qalmayın! Kimsə müəllimi öz siyasi maraqları, ambisiyaları naminə, ucuz şou naminə təhqir edə bilməz, vəssalam!" Beləliklə, vaxtilə şəhərin mərkəzində şalvarını aşağı çəkib, gündəyməzini utanıb-qızarmadan millətə göstərən, sözün əsl mənasında, abidələrə kərkinən, saçına rezin vurub, "ya mamina duroçka" stilinə girən, gündə min bir hoqqadan çıxmaqla, nə qədər güclü təlxək olduğunu sübuta yetirən həmin bu həyazıs bloqerin müəllim adını bu qədər ucuz tutmağa çalışması, arsızca "Mehman yox, Mehman müəllim!" adlandırılması tələbini bağırması, çox yəqin ki, araşdırılması vacib olan bir məsələdir. Ümid edək ki, onun iştirak edəcəyi bələdiyyə dairəsində səs toplaya bilməyəcək həmin bu kloun. Çünki belə həyasız, arsız-abırsız ünsürlər səs toplayarsa, vay həmin bələdiyyə ərazisində yaşayan əhalinin halına..!

***Rövşən RƏSULOV***

***P.S. Mehman kimi klounlardan bələdiyyə sədri olarsa, Mehman kimi haray-şivənçi "müəllimə" çevrilərsə, həmkarım Sənan Nəcəfov demişkən, dağıl, a dünya!***

# "Elvin İsayevi müdafiə etməyəcəyəm!"

*Hüquq müdafiəçisi qəti sözünü dedi*



***Ukraynadan Azərbaycana deportasiya edilən və özünü "ictimai fəal" adlandıraraq, söyüş qrupuna aid edilən Elvin İsayevin müdafiəsinə, hətta müxalifətyönlü hüquq müdafiəçiləri belə qalxmaq fikrində deyillər. Sözügedən mövzu ilə bağlı hüquq müdafiəçisi Novella Cəfəroğlu mətbuata açıqlamasında, ümumiyyətlə, söyüş söyən, insanları təhqir edən heç kimi müdafiə etməyəcəyini açıqlayıb. "Söyüş söyən heç bir şəxsi müdafiə etmək fikrində deyiləm" deyə bildirən Cəfəroğlu bu addımını belə izah edib.***

SİTAT: "Sən bir şeyi bəyənmirsənsə, onu tənqid edə bilərsən. Eləcə də, hakimiyyəti bəyənmirsənsə, konkret faktlar göstərməklə, tənqid et. Bildir ki, filankəs korrupsionerdi, korrupsiya ilə evlər alıb və sairə. Bunu tənqid edə bilərsən. Təhqir isə, yolverilməzdir. Özümə söz vermişəm ki, kimliyindən asılı olmayaraq, təhqirə yol verən, söyüş söyən şəxsin hüquqlarını müdafiə etməyəcəyəm. Ona görə də, əgər Elvin İsayev söyüş söyübsə və buna görə cəza alacaqsa, onun hüquqlarını müdafiə etmək fikrində deyiləm".

Qeyd edək ki, E.İsayev təhqirlərlə yanaşı, hakimiyyəti dəstəkləyən sadə vətəndaşları da təhdid edib, silahlarla, hətta dəyənəklə hədələyib, söyüşlər söyüb. Onun videoları hazırda da "youtube" sosial şəbəkəsində qalmaqdadır. Onu da xatırladaq ki, Avropa ölkələrində oturub, özlərini "siyasi mühacir" adlandıran, bu vasitə ilə hakimiyyət nümayəndələrini təhqir edən bir sıra şəxslərin də deportasiyaları mümkün görünür. Artıq saxta yollarla "siyasi mühacir" adını alıb, özlərini "müsavatçı" adlandıranların işləri ilə bağlı Almaniyada istintaq araşdırmalarına başlanılıb və bir qrup Müsavat və AKM üzvləri həbs olunub və deportasiyalarını gözləyirlər.

Ehtimallar var ki, AXCP və s. müxalifət partiyalarının söyüş qruplarına aid edilən digər şəxslərin də haqqında araşdırmalara başlanılacaq. Hollandiya, Belçika, Norveç, Böyük Britaniya və Fransa kimi ölkələrdə saxta yollarla yaşayan şəxslər barədə rəsmi ölçülərin götürüləcəyi istisna olunmur.

***RÖVŞƏN***



Təhmasib Novruzov

# Boykot olunmuşların "boykot" qərarı

***Yəqin uşaqkən hər kəs məşhur Ovçu Pirimin sərgüzəştlərini oxuyub. Zavallı hər dəfə ova çıxanda, uğursuzluqla qarşılaşar və evə əliboş dönərmiş. Sərgüzəştlərin birində isə, başqa ovçunun verdiyi ayağı bağlı dovşanı istəyir güllə ilə vursun ki, evdə onun bu heyvanı özünün ovladığına inansınlar. Uğursuz ovçunun bu dəfə də bəxti gətirmir. Güllə gedib dovşanın ayaqlarına bağlanmış ipi kəsir və bu hazır ov payı da əlindən çıxır...***

İndi bizim millisizlik sindromuna çevrilmiş, "Milli Şura" adlandırılan qondarma qurumun yarandığı zamandan indiyə kimi olan fəaliyyətini göz önünə gətirəndə, istər-istəməz, Ovçu Pirimin sərgüzəştlərini xatırlamalı olursan. Bir az qayıdaq keçmişə ki, bilməyənlərin də xəbəri olsun onların "fəaliyyətlər"indən. 2013-cü ildə, Azərbaycanda növbəti prezident seçkiləri ərəfəsində birdən-birə Rusiyadan hay-küylü bir xəbər daxil oldu gündəmə. Xəbər də ondan ibarət oldu ki, Rusiyada yaşayan Azərbaycan əsilli oliqarxlar yığışıblar bir yerə, qərarfason bir şey də qəbul eləyiblər ki, Azərbaycanda demokratik qüvvələri bir yerə toplayıb, seçkilərdə onların qələbəsinə dəstək versinlər. Bu oliqarxların başında da kim durordu, kim dayanırdı? Əlbəttə, Rüstəm İbrahimbəyov deyilən zatsız bir zad... Elə o zaman bütün millətsevərlər anladılar ki, söhbət demokratiyalıq-filanlıq deyil. Söhbət bütün həyatını millətini aşağılamaqla yaşayan, qoca vaxtında Bakıda böyük-böyük mülkləri əlinə keçirmək istəyən, lakin Azərbaycan vətəndaşı olmadığına görə baş barmaqla şəhadət və orta barmaqların birləşməsindən yaranan işarə ilə qarşılaşdıqdan sonra indiki iqtidara qənim kəsilən birinin hikkəsinə millətin və dövlətin mənafelərinin satılmasından gedir. Məsələ, ümumiyyətlə, Azərbaycanda birmənalı pislənsə də, yenə beş-on nəfər özlərini siyasətçi hesab edən törtöküntü tapıldı ki, yığışıb oliqarxların pullarını həzmirabedən keçirsinlər. Bəli, ölkə üçün, millət üçün nəsə eləməkdən söhbət belə gedə bilməzdi. Məhz siyasət dəllalları üçün göydən bir zənbil düşmüşdü, onlar da dəli deyildilər ki, bu zənbili geri qaytarsınlar. Beləcə, həmin siyasət dəllalları bir yerə yığışıb, bir qurum yaratdılar. Adını da qoydular "Milli Şura"! Kasıb itinin adını "qızıl", ya da "gümüş" qoyur ki, bəlkə bu ada var-dövlət gəldi. Onlar da Azərbaycanın tarixində böyük xidmətləri olmuş bir qurumun adını verməklə, düşündülər ki, bu adın kölgəsində millətdən istədiklərini qoparacaqlar. Əslində, bu faktın özü tariximizə xəyanət faktıdır və mənəvi məsuliyyət yaradır. Nə isə, sözüm onda deyil. Elə ki, həmin il keçirilən seçkidə yekə bir zərbə alıb, qaldılar güncdə, başladı bu qurumda yarpaqlar tökülməyə. Keçəlləşmiş barsız söyüd ağacı kimi, kölgəsi də qalmadı ki, kimsə gündən gizlənmək üçün altına girsin. Sonra C.Həsənli deyilən keçmiş elm adamı, baxıb gördü ki, burada yaxşı pul var, düşündü ki, bu yaşında gedib haradan pul qazanacaq, hazır yemdi də, əlindən buraxmayıb xımır-xımır yesin. Yedi də və hələ yeyir də. Amma ha yeyir, doymaq bilmir ki, bilmir. Yaranışından bu günə kimi nə demokratiyaya, nə də ümumən, cəmiyyətə zərrə qədər xeyri olmayan bu qurum, hər dəfə seçkilər gələndə, özünü atır ortalığa, bir az çığırır, bir az bağırır, elə ki, bu çığırtı-bağırtıdan heç nə əldə eliyə bilmir, başlayır günahkar axtarmağa. Günahkar da kim ola, indiki iqtidar (?!). Sən demə, bu iqtidar öz əli ilə iqtidarlığını əlindən buraxıb, cəmillərə deməliymiş ki, gəlin, iqtidar siz olun. Bu dəfə də olmayan qurum gülünc bir qərarla özünü atıb ortaya: boykot! Burada sual verilə bilər ki, nəynən, Cəmiş? Sən az qala on ildi ki, boykot olmuş durumdasan, boykot olmuş bir qurumun güclü iqtidara qarşı boykot etmək düşüncəsinə gəlməsi, gülünc deyilmi?

Nağılımızın sonunu da deyim, bu günlük bitirək. Pay verilmiş dovşanı da əlində saxlaya bilməyən Ovçu Pirim evə gəlir. Yenə əliboş olduğunu görən evdəkilər ağız büzəndə, Ovçu Pirim deyir: "Mən yazıq nə bilim ki, güllə gedib ayağındakı kəndirə dəyəcək?.."

# Azərbaycan gənclərinin siyasi mədəniyyətini inkişaf etdirən ictimai birliklər

***Yeni Azərbaycan Partiyası Gənclər Birliyi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Təşkilat fəaliyyətini partiya rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun quraraq, bir sıra uğurlu layihələrin təşkilatçısı olmuşdur. Daim Ulu Öndər Heydər Əliyev ideyalarına bağlılığı, Cənab Prezident, partiyamızın Sədri İlham Əliyevin praqmatik siyasi xəttinə dəstəyi ilə seçilən partiyanın Gənclər Birliyi ötən il də ənənəsinə sadiq qalmışdır. Fəaliyyətini Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin ictimai-siyasi fəaliyyəti ilə bağlayan ölkə gəncliyi bu istiqamətdə qətiyyətli yollar keçərək, bugünkü günümüzdə öz mövqeyi ilə seçilir.***

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi əsas fəaliyyətini Azərbaycan dövlətinin inkişafına dəstək, gənclərin sosial-ictimai cəhətdən hazırlığı, ölkə həqiqətlərinin dünyada təbliği və maarifləndirmə işinə həsr edərək, bu istiqamətdə onlarla layihə həyata keçirmişdir. Partiyanın Gənclər Birliyinin həyata keçirdiyi layihələr həm əhatə dairəsinə, həm də keyfiyyətinə görə fərqlənmiş, nəticə etibarı ilə, il ərzində partiyaya qoşulan istedadlı gənclərin sayı artmışdır.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəaliyyətində əlamətdar hadisələrdən biri də Gənclər Birliyimizin hesabat konfransının keçirilməsi oldu. Konfransda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin 5 il ərzində gördüyü işlər geniş şəkildə təqdim edilib. Gənclər Birliyinin sədr, sədr müavinləri, şura və idarə heyətinin seçilməsi üçün səsvermə keçirildi və buna əsasən, növbəti tərkib müəyyənləşdi.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin həyata keçirdiyi müxtəlif istiqamətli layihələr cəmiyyətimiz tərəfindən müsbət qarşılanmışdır. Bunun nəticəsi olaraq, Gənclər Birliyinin sıraları keyfiyyət etibarı ilə zənginləşmiş və yeni fəal gənclər partiya sıralarına qoşulmuşlar.

YAP Gənclər Birliyi Azərbaycan gənclərinin maariflənməsi, ictimai-siyasi cəhətdən aktivliyi və sosial aləmə adaptasiyası üçün kifayət qədər layihələr həyata keçirmiş və bu layihələr partiyaya qoşulan gənclərin sayının artmasına səbəb olmuşdur.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi İlk Avropa Oyunlarına dəstək məqsədi ilə müxtəlif tədbirlər həyata keçirmişdir. Təşkil edilən tədbirlərdə gənclərə Avropa Oyunlarının mahiyyəti və əhəmiyyəti haqqında məlumat verilmiş, təbliğat işi aparılmışdır. Gənclərimiz bu prosesdə könüllülər kimi iştirak ediblər. Bu tədbir, həm də könüllülük institutunun əhəmiyyətini göstərdi.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi oyunlara dəstək məqsədi ilə veloyürüş təşkil etmişdir. Təşkil olunmuş veloyürüşdə 300-dən artıq gənc “Azneft” meydanından Olimpiya stadionuna qədər məsafə qət edərək, Avropa Oyunlarına dəstəyini ifadə etmişdir. Partiyamızın Gənclər Birliyi oyunlar ərəfəsində “Olimpik Tir-Klub”da gənclər arasında 1-ci Avropa Oyunlarının təbliği üçün atıcılıq yarışması təşkil etmişdir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi “Yeni Azərbaycan” qəzeti, “Səs” İnformasiya Agentliyi, “İki Sahil” qəzeti ilə birgə bu mövzuda bir neçə dəfə dəyirmi masalar təşkil etmiş və gənclərlə fikir mübadilələri aparmışdır. Gənclər Birliyi adıçəkilən idman yarışına dəstək məqsədi ilə istedadlı gənclərin əl işlərindən ibarət sərgi də təşkil etmişdir. Ümumilikdə, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi 1-ci Avropa Oyunları zamanı xüsusi fəallığı ilə fərqlənmişdir.

Son parlament seçkiləri ötən il ölkəmizin ən mühüm siyasi hadisələrindən biri oldu. Yeni Azərbaycan Partiyası seçki prosesini uğurla həyata keçirdi. Seçkilər ərəfəsində partiya tərəfindən irəli sürülmüş namizədlərin təbliğat-təşviqat prosesində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri xüsusi aktivliyi ilə diqqəti cəlb etdilər. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi tərəfindən partiyamızın namizədlərinə dəstək məqsədi ilə tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə videoçarx çəkildi. Videoçarxda YAP-ın gördüyü işlər müqabilində, seçicilərdən partiyanın namizədlərinə səs verməkistənilirdi. Eyni zamanda, 30 gəncin iştirakı ilə “Yeni hədəflərə doğru” şüarı altında fləşmob təşkil olundu.

Seçki kampaniyası ərəfəsində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri partiya rəhbərliyinin verdiyi bütün tapşırıqları yerinə yetirərək, həm müşahidəçi, həm namizədlərin təbliğatçısı, həm də seçki qərargahının üzvü kimi seçkilərdə iştirak etdilər.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi, paytaxt Bakıda olduğu kimi, respublikanın ayrı-ayrı regionlarında da fəaliyyətini davam etdirməkdədir. Bu işdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin region nümayəndəlikləri mühüm rol oynayırlar. Birliyimizin Mərkəzi Ofisi ilə sıx əlaqədə olan region gənclər birliklərimiz il ərzində müxtəlif tədbirlər həyata keçirmişlər. Hər zaman gənclərlə işə böyük diqqət yetirən Yeni Azərbaycan Partiyası Gənclər Birliyi region gənclərinin asudə vaxtının səmərəli təşkili, gənclərin sosial mühitə adaptasiyası, ictimai fəallığının artırılması və maarifləmməsi istiqamətində müxtəlif layihələr həyata keçirmişdir.

2015-ci ilin əvvəlində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri Qusar rayonuna səfər etmiş, rayon gəncləri ilə görüş keçirərək, onların istəkləri ilə maraqlanmış və müxtəlif mövzularda maarifləndirici təlimlər keçmişlər. Noyabr ayında Yeni Azərbaycan Partiyası Gənclər Birliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Qusar rayonunda “Ənənəvi islam dəyərləri və müasirlik” mövzusunda konfrans keçirilmiş, region gəncləri ilə müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılmışdır. 2015-ci ilin dekabr ayında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri kimi aran zonasının gəncləri ilə görüşmüş, bir sıra vacib məsələlər ətrafında fikir mübadilələri aparmışıq.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi dünyanın bir çox ölkələrinin gənclər təşkilatları, ictimai birlikləri ilə əməkdaşlıq etmiş və müxtəlif beynəlxalq tədbirlərdə iştirak etmişdir. Belə ki, Yeni Moskvada Rusiyanın hakim partiyası - “Yedinaya Rossiya”nın Gənclər Təşkilatı olan “Molodaya Qvardiya”nın Beynəlxalq Forumunda, Nyu-Yorkda Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (İCAPP) BMT-yə müşahidəçilik statusunun müzakirəsində, tarixlərində Dominikan Respublikasının paytaxtı Santo-Dominqoda Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransı (ICAPP) ilə Latın Amerikası və Karib Adalarının Siyasi Partiyalarının Daimi Konfransının (COPPAL) birgə təşkil etdiyi Beynəlxalq Forumda Gənclər Birliyini təmsil etmişdir.

Ötən il Pakistanın hakim partiyasının Gənclər Qolunun nümayəndə heyəti ilə YAP Gənclər Birliyi Ofisində görüş keçirilmişdir. Görüş zamanı ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin nümayəndə heyəti 26-30 mart 2015-ci il tarixlərində Gürcüstanın Kutaisi şəhərində Niderland Çoxpartiyalı Demokratiya İnstitutunun Cənubi Qafqaz üzrə nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən “Cənubi Qafqazın Gənc Siyasətçilərinin Forumu”nda iştirak etmişdir.

Eləcə də, YAP Gənclər Birliyinin nümayəndə heyəti Ədalət və İnkişaf Partiyasının (AKP) Gənclər Qollarının dəvəti ilə Türkiyənin paytaxtı Ankara şəhərinə səfər etmişdir. YAP Gənclər Birliyinin nümayəndə heyəti səfər zamanı Türkiyə Böyük Millət Məclisinin sədri, Türkiyənin xarici işlər naziri və bir sıra dövlət və hökumət nümayəndələri ilə rəsmi görüşlər keçirmişlər. Ötən ilin dekabrında da Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin nümayəndə heyəti AKP Gənclik Kollarının növbəti konfransında iştirak etmək üçün Türkiyədə səfərdə olmuş, bu ölkənin dövlət və hökumət rəsmiləri ilə görüşlər keçirmişlər.

İl ərzində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin nümayəndələri, həmçinin, Malayziyada və Vyetnamda səfərdə olmuş bu ölkənin dövlət rəsmiləri ilə görüşlər keçirmişlər.

“Güzəran Sosial Araşdırmalar” İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə həyata keçirilən “Vətəndaş mədəniyyətinin təbliği” layihəsi çərçivəsində “Vətəndaş cəmiyyətinin vətəndaş mədəniyyətinin formalaşmasında rolu” mövzusunda dəyirmi masa keçirilib.

“Mia.az” xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Əliməmməd Nuriyev, QHT nümayəndələri və KİV rəhbərləri iştirak ediblər.

Ə.Nuriyev tədbiri giriş sözü ilə açaraq, qeyd edib ki, hüquqi dövlət və şəxsiyyət arasında qarşılıqlı məsuliyyət prinsipi hökm sürür. Hüquqi dövlət qanunvericilikdə şəxsi hüquqları təsbit edərək bu hüquqları, qanunsuzluqdan və özbaşınalıqdan qoruduğu kimi, vətəndaş da öz hərəkətlərini ictimai maraqlara uyğunlaşdırmağa, başqalarının hüquqlarını və mövcud qayda-qanunları pozmamağa borcludur. Onun sözlərinə görə, hazırda bu məsələ Azərbaycan cəmiyyəti üçün də aktualdır və sözügedən layihə bu istiqamətdə töhfə verəcək.

“Güzəran” Sosial Araşdırmalar” İB dəyirmi masada, məhz vətəndaş cəmiyyətinin vətəndaş mədəniyyətinin bərqərar olmasında nə etdiyi, nə etməli olduğu, hansı çağırışlarla üzləşdiyi barədə müzakirələr aparacaq. Məqsəd yeni ideya və yanaşmaların axtarılması, QHT-lər üçün tövsiyələrin hazırlanmasıdır: “Hazırda qlobal qeyri-sabitlik dövründə vətəndaş mədəniyyəti qeyri-sabitlikdən və cəmiyyətdə harmoniyanın pozulmasından əsas sığortalayıcı dəyərlər sistemi kimi qəbul olunur. Mürəkkəb geosiyasi regionda yerləşən və vaxtaşırı xarici təsirlərlə üzləşən Azərbaycan üçün də vətəndaş mədəniyyəti dəyərlərinin güclü şəkildə bərqərar olması aktualdır. Vətəndaş cəmiyyəti - dəyərlərin geniş təşəkkül tapması, ən yaxşı qoruyucu mexanizm kimi qiymətləndirilməlidir. Bu baxımdan, bu mövzuda müzakirələr, axtarışlar çox aktualdır və hər birinizin fikri çox dəyərlidir”.

Bu fikirlər sonra “İstiqlal.az” saytında yaradılan “Vətəndaş mədəniyyəti” bölməsində öz əksini tapacaq.

Layihə eksperti Zaur İbrahimli “Vətəndaş cəmiyyətinin vətəndaş mədəniyyətinin formalaşmasında rolu və vəzifələri” mövzusunda məruzə ilə çıxış edib.

QHT və KİV rəhbərləri öz təkliflərini veriblər. “XXI əsr” Təhsil Mərkəzi”nin rəhbəri Etibar Əliyev “Vətəndaş mədəniyyəti” adlı vəsaitin nəşr edilməsini təklif edib. “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyinin sədri Əhməd Abbasbəyli gənclər üçün bu mövzuda maariflənmə aparılmasını, “Qadınlar Arasında Həmrəylik” İB-nin sədri Ruhəngiz Hüseynova zorakılıq və ayrı-seçkilik ideologiyasına qarşı vətəndaş mədəniyyəti dəyərlərinin təşviqini təklif ediblər.

Layihə 2020-ci ilin iyununadək davam edəcək.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 17 dekabr

# Qarın piylərindən necə azad olaq?



Son dövrlərdə arıqlamaq, pəhriz kimi ifadələrin gündəmdə olduğunu nəzərə alsaq, artıq çəkili insanlar üçün ən vacib və demək olar ki, ən çox arzulanan məsələ məhz piylərdən azad olmaqdır. Bədən kütləsinin bir çox hissəsində piylərə rast gəlsək də, təcrübələrə görə qarın nahiyəsində piylərdən azad olmaq bədənin digər nahiyələri ilə müqayisədə daha çətindir. Bunun üçün müxtəlif qidalar qəbul etmək, pəhrizlərdən, hətta ən çətin idman növlərindən istifadə olunur.

**Piy qatı nədir və necə yaranır?**

İlk növbədə bildirək ki, insan bədənində yağ qatı iki cür yığılır. Birini növ yağ qatı visseral adlanır və o, daha çox qarın ətrafında toplaşır. İkinci növ yağ qatı əsasən bud nahiyəsində toplaşır. Birinci növ həm qadın, həm kişidə rast gəlinirsə, ikinci növ daha çox "armudvari" və ya "qum saatı" bədən quruluşuna sahib olan qadınlarda rast gəlinir. Bu hal daha çox estrogen hormonu ilə əlaqələndirilir.

Həkim-dietoloqların fikrincə, ikinci növ yağ qatı zərərli deyil. Əksinə qadınlara uşaq dünyaya gətirərəkən daha dözümlü olmaq və sağlam uşağa sahib olmaq üçün xeyirlidir. Amma buna baxmayaraq, bu hal xanımları narahat edir və onlar ikinci növ yağ qatından canlarını qurtarmaq üçün xüsusi canfəşanlıq edirlər.

Mütəxəssislərin fikrincə, viseral yağ əsasən oturaq həyat tərzi və düzgün olmayan qidalanma səbəbindən qarın nahiyyəsinə yığılır və nəticədə diabet, ateroskleroz, hipertaniya və nəfəs darlığına səbəb ola bilir. Kişilərin qarın nahiyyəsində yığılan piylərinə hətta "pivə çəlləyi" də deyilir.

Dietoloqların fikrincə, qarın nahiyəsində piy qatının yaradan səbəblərdən biri müntəzəm olaraq pivə qəbuludur: "Yaş artdıqca yüksək kalorili qaidaların qəbulu nəticəsində insan orqanizmdə yaranan mənfi reaksiya daha çox qida qəbuluna şərait yaradır".

**Bədən yağlarından necə xilas olaq?**

Bədən yağlarından xilas olmaq üçün yemək vərdişlərinin tamamilə dəyişdirilməsi məsləhət görülür. Bununla yanaşı, dietoloqlar salatlarda, meyvə və tərəvəzdə olan lif istehlak etməyin vacibliyini qeyd edir. Qızardılmış və sadə karbohidratlardan imtina etmək, onları qaynadılmış və bişmiş yeməklə əvəz etmək tövsiyə olunur.

Bütün bunlarla yanaşı, fiziki fəaliyyətin aktivliyinə diqqət etmək önə çəkilir. Əgər incə belə sahib olmaq istəyirsinizsə, həftədə ən azı iki dəfə idman salonuna getməli, bundan əlavə, yuxu rejiminə diqqət etməli, yuxu öncəsi qadjetlərdən uzaq durmalısınız.

***Nailə Məhərrəmova***

# Avtomobil qaçırmaqda şübhəli bilinən Lerik rayon sakini saxlanılıb

Lerik Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 15-də Divağac kənd sakini C.Ağayevin "VAZ-2107" markalı avtomobilini qaçırmaqda şübhəli bilinən Şonayçola kənd sakini, ruhi xəstə E.Məhərrəmov saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həmin gün Metropolitendə Polis Şöbəsinə müraciət edən Beyləqan rayon sakini A.Allahyarzadə metronun "28 May" stansiyasında cibindən mobil telefonunun oğurlandığını bildirib. Oğurluğu törətməkdə şübhəli bilinən Yevlax rayon sakini, əvvəllər məhkum olunmuş E.Hümmətov keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində polis əməkdaşları tərəfindən yaxalanıb. Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları dekabrın 12-də rayondakı evlərin birindən 45 min ABŞ dolları və 3500 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Veravul kənd sakini F.Əhədzadəni tutublar. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Nəbiyeva Aytən Ramiz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# YAP Səbail rayon Könüllülər Birliyinin təşkilatçılığı ilə məşhur təlimçi Orxan Şahbaz gənclərə "Özünü ifadə və natiqlik" mövzusunda təlim keçib

***YAP Səbail rayon Könüllülər Birliyinin təşkilatçılığı ilə gənclər üçün növbəti təlim-seminar təşkil olunub. Məşhur təlimçi Orxan Şahbaz gənclərə "Özünü ifadə və natiqlik" mövzusunda təlim keçdi. İnteraktiv sual-cavab formatında təşkil olunan təlim gənclərin böyük marağına səbəb olub.***




Tədbiri açıq elan edərək gəncləri salamlayan YAP Səbail rayon Könüllülər Birliyinin sədri Rəşad İmanov, birliyin İctimai əlaqələr departamentinin sədri Taleh Mansurov, YAP Səbail rayon təşkilatının əməkdaşı Bəyim Nəbiyeva və PR Akademinin məzunu, bir çox layihələrin rəhbəri və meneceri Ümid Orucov YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı professor Şəmsəddin Hacıyevə gənclər üçün yaradılan şəraitə və müxtəlif səpkili təşəbbüslərin reallaşdırılması üçün göstərilən dəstəyə görə öz minnətdarlıqlarını bildiribilər. Bu mövzularda təşkil olunan təlimlərin gənclərin dünyagörüşünün genişlənməsi və inkişafındakı rolundan danışan çıxışçılar Könüllülər Birliyinin gələcəkdə nəzərdə tutulan layihələri haqqında məlumat veriblər. Vurğulanıb ki, bu cür təlimlər silsilə şəklində davam edəcək.



Təlimçi Orxan Şahbaz auditoriya qarşısında çıxış edərək bildirib ki, gənclər ölkəmizə, dövlətimizə layiqli vətəndaşlar olaraq, ümummilli inkişafımıza töhfə vermək üçün yüksək biliyə, savada, bacarıqlara yiyələnməli və dövrün çağırışlarına uyğun olaraq, daim öz üzərlərində işləməlidirlər.

Mövzu ətrafında aparılan diskussiyada gənclərin təlimçiyə çoxsaylı sualları ətraflı cavablandırılıb. Sonda xatirə şəkli çəkilib.

***R.HÜSEYNOVA***

# Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxs saxlanılıb



***Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Sumqayıt şəhəri ərazisində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Cəbrayıl rayon sakini N.Quliyev saxlanılıb. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi axtarış zamanı ondan 3 qrama yaxın heroin və 9 qrama yaxın metamfetamin götürülüb.***

Araşdırmalarla onun Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsaletmə, əldəetmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsi ilə axtarışda olması da müəyyən edilib. Davam etdirilən tədbirlərlə onun qohumu X.Quliyevin Kotec qəsəbəsindəki evindən 245 qramdan çox heroin, 241 qrama yaxın metamfetamin və 2 elektron tərəzi aşkarlanaraq götürülüb. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**